RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN



№ 203 (10223) 4 noyabr 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



İlham Əliyevə nüfuz qazandıran müstəqil siyasət

Azərbaycanın beynəlxalq nüfuzunun artmasını şərtləndirən mühüm amillərdən biri dünyanın aparıcı dövlətləri ilə münasibətlərinin yeni məzmun və keyfiyyət mərhələsinə yüksəlməsidir. Bu baxımdan ABŞ ilə əlaqələrin inkişafı xüsusi əhəmiyyət daşıyır. 2025-ci il avqustun 7-8-də Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfəri və Ağ Evdə keçirilən görüş iki ölkə arasında münasibətlərin inkişafında mühüm siyasi hadisə kimi yadda qaldı. Görüş zamanı Donald Trampın Azərbaycan Prezidentinə Ağ Evin rəmzi açarını təqdim etməsi dövlətimizin başçısına göstərilən ehtiramın simvolik ifadəsi oldu. Səfər çərçivəsində əldə edilmiş razılaşmaların davamı kimi 2026-cı il fevralın 10-da Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması ikitərəfli münasibətləri yeni institusional mərhələyə yüksəltdi. Sənəd regional bağlantılar, enerji, ticarət, nəqliyyat, investisiyalar, süni intellekt, rəqəmsal infrastruktur və təhlükəsizlik sahələrində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Bu sənəd Azərbaycanın beynəlxalq tranzit və iqtisadi mərkəz kimi mövqeyinin möhkəmlənməsi, eləcə də Cənubi Qafqazda sülh və regional əməkdaşlıq imkanlarının genişlənməsi baxımından mühüm perspektivlər açır.

Çinlə münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi də Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən-dir. Prezident İlham Əliyevin 2025-ci ilin aprelində Çinə dövlət səfəri zamanı imzalanmış Birgə Bəyannamə iki ölkə arasında siyasi dialoqun, iqtisadi-ticarət əlaqələrinin, nəqliyyat-logistika əməkdaşlığının və humanitar münasibətlərin genişləndirilməsi üçün yeni imkanlar yaradıb. Dünyanın ən böyük iqtisadi mərkəzlərindən sayılan Çinlə tərəfdaşlıq Azərbaycanın "Şərq-Qərb" nəqliyyat əlaqələrindəki rolunu artırmaqla yanaşı, ölkəmizin qlobal iqtisadi proseslərə inteqrasiyasına da töhfə verir. ABŞ və Çin kimi fərqli geosiyasi və iqtisadi mərkəzlərlə strateji tərəfdaşlıq münasibətlərinin qurulması Azərbaycanın müstəqil xarici siyasətinin mühüm göstəricisidir.

4

İlham Əliyev İliyana Yotovanı təbrik edib

Bolqarıstan Respublikasının Prezidenti zati-aliləri xanım İliyana Yotovaya

Hörmətli xanım Prezident!

Bolqarıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Xoş ənənələrə əsaslanan, qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edən Azərbaycan-Bolqarıstan dövlətlərarası münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur.

Əminəm ki, ölkələrimiz arasında dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın və strateji tərəfdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Bolqarıstan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 noyabr 2026-cı il

"Dost Panama xalqına daim əmin-amanlıq və rifah arzulayıram"

Panama Respublikasının Prezidenti zati-aliləri cənab Xose Raul Mulino Kinteroya

Hörmətli cənab Prezident!

Panama Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Əminəm ki, Azərbaycan-Panama dostluq münasibətlərini möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı faydalı əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Panama xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2026-cı il

Azərbaycançılıq həmrəyliyimizin və gücümüzün mənəvi sütunudur




Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə bu ideologiya dövlət səviyyəsində sistemləşdirildi. Bu vacib addım da göstərdi ki, müstəqil Azərbaycanın yaşaması və möhkəmlənməsi üçün vahid, hamını öz ətrafında birləşdirən ideoloji dayaq mütləqdir. Ulu Öndər uzaqgörənliklə sübut etdi ki, milli həmrəylik yalnız çağırışlarla deyil, elmi və siyasi konsepsiya ilə təmin olunmalıdır. Dahi şəxsiyyət azərbaycançılığı, sadəcə, bir nəzəriyyə kimi deyil, müstəqil dövlətçiliyimizin ana xətti kimi tətbiq etdi.

Azərbaycançılıq ideologiyasının ən böyük gücü onun fərqliliyə hörmət və bərabərliyi özündə ehtiva etməsindədir. Məhz bu yanaşmaya görə, bu ideologiya ölkəmizdə əsrlər boyu yan-yana, bir ailə kimi yaşayan bütün azsaylı xalqları, etnik və dini azlıqları vahid çətir altında birləşdirib.

5

8 Noyabr - Zəfər Günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin BƏYANATI



Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi və hərbi liderliyi tarixi qələbənin qazanılmasında müstəsna rol oynamışdır. Onun strateji baxışı, siyasi iradəsi, sərkərdəlik məharəti və tarixin həlledici məqamlarında düzgün qərarlar qəbul etmək qabiliyyəti hərbi, diplomatik və informasiya istiqamətlərində fəaliyyəti vahid hədəfə yönəltməyə imkan vermişdir. Dövlət başçısının rəhbərliyi ilə ölkənin iqtisadi potensialı müdafiə qüdrətinə, ümumxalq dəstəyi sarsılmaz qətiyyətə, döyüş meydanında qələbələr isə uzunmüddətli siyasi nəticələrə çevrilmişdir.

3

Makronun uğursuz siyasəti və dərinləşən böhran

Dövlət strukturlarının və təhsil ocaqlarının blokadaya alınması ilə daha da kəskinləşən proseslər gənclərin, həmkarlar ittifaqlarının və "sarı jiletlilər" kimi müxtəlif sosial təbəqələrin vahid cəbhədə birləşməsinə gətirib çıxarıb. Yüzlərlə məktəb və universitetdə dərslərin iflic olması, küçələrdə polislə nümayişçilər arasında baş verən şiddətli qarşıdurmalar fonunda hakimiyyət dialoq qurmaq əvəzinə yenə hüquq-mühafizə orqanlarının gücünə sığınır. Təhlükəsizlik tədbirlərinin bir qədər də sərtləşdirilməsi və təzyiqlərin artırılması mövcud gərginliyi daha da alovlandırır.



4



Yeni səfir əməkdaşlığımızın inkişafı istiqamətində səylə çalışacaq

Prezident İlham Əliyev Laosun Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Laos Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Siphandon Oybuabuddini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı səfirin etimadnaməsini Laos Xalq Demokratik Respublikasının Prezidenti Thonqlun Sisulitin ötən ay ölkəmizə rəsmi səfərindən sonra təqdim etdiyini vurğuladı. Prezident İlham Əliyev səfərin çox uğurlu olduğunu dedi. Bildirdi ki, münasibətlərimizin dostluq xarakterini nümayiş etdirən bu səfər zamanı ikitərəfli əlaqələrimizin möhkəmləndirilməsi və beynəlxalq təşkilat çərçivəsində əməkdaşlıq ilə bağlı məsələlər müzakirə olundu.

Azərbaycan Prezidenti Bakıda keçirilmiş Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 7-ci Zirvə Görüşündə Laosun yüksək səviyyədə iştirak etdiyini dedi. Dövlətimizin başçısı AQEM-in beynəlxalq nüfuzunun artdığını vurğuladı, məhz ölkəmizin sədrliyi dövründə Laosun bu təşkilatın tamhüquqlu üzvü olmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın AQEM-ə sədrliyinin daha 2 il uzadılması ilə bağlı qərarın bütün üzv dövlətlər, o cümlədən Laos tərəfindən dəstəklənməsinə görə minnətdarlığını bildirdi, bunu ölkəmizə olan hörmətin nümunəsi kimi qiymətləndirdi.

Dövlətimizin başçısı səfirə diplomatik fəaliyyətində uğurlar arzuladı.

Qəbula görə təşəkkür edən səfir Laos Prezidenti Thonqlun Sisulitin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Laos dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Səfir həmçinin qeyd etdi ki, Laos Prezidenti Azərbaycana rəsmi səfəri zamanı göstərilən qonaqpərvərliyə görə Prezident İlham Əliyevə və xalqımıza bir daha minnətdarlığını bildirir. O, Laos Prezidentinin ölkəsinə rəsmi səfərlə bağlı dəvətini dövlətimizin başçısına çatdırdı.

Səfir fəaliyyəti dövründə əməkdaşlığımızın inkişafı istiqamətində səylə çalışacağını dedi.

Söhbət zamanı əlaqələrimizin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Bütün sahələrdə ikitərəfli əməkdaşlıq üçün böyük potensial var

Azərbaycan Prezidenti İlham Əliyev Keniyanın ölkəmizdə yeni təyin olunmuş səfirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Keniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cona Mayna Mvangini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Keniya Prezidenti Uillyam Samoei Rutonun ölkəmizə səfərini, həmçinin onunla Azərbaycanda və beynəlxalq təşkilatlar çərçivəsində görüşlərini məmnunluqla xatırlatdı.

Ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev vurğuladı ki, bu, digər istiqamətlər, o cümlədən iqtisadi-ticari sahədə əməkdaşlığın möhkəmləndirilməsi üçün geniş imkan yaradır. Dövlətimizin başçısı bütün sahələrdə ikitərəfli əməkdaşlıq üçün böyük potensialın olduğunu qeyd etdi.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Səfir qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, son dövrlərdə əlaqələrimizin inkişaf etdiyini deyərək hər iki dövlət başçısının əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı verdikləri tapşırıqlara uyğun olaraq səylərini əsirgəməyəcəyini vurğuladı.

Cona Mayna Mvangi əməkdaşlığın genişləndirilməsi məsələsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəminə toxundu.

Görüşdə Azərbaycanla Keniya arasında bir çox sahədə əməkdaşlığın perspektivləri müzakirə olundu.

"Qarabağ uğrunda müharibə: strategiya, texnologiya və qələbə"

Noyabrın 3-də Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi (BMTMM) və Bakı Kitab Mərkəzinin birgə təşkilatçılığı ilə Qarabağ münaqişəsinin tarixi köklərini, Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı qələbənin əsas amillərini təhlil edən "Qarabağ uğrunda müharibə: Strategiya, texnologiya və qələbə" ("The War for Karabakh: Strategy, Technology, and Victory") kitabının təqdimat mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə kitabın amerikalı müəllifləri - ABŞ Ordusunun ehtiyatda olan polkovniki Liam Kollinz və mayor Con Spenser nəşrin hazırlanma prosesi, əsas tədqiqat istiqamətləri və gəldikləri nəticələr barədə ətraflı məlumat veriblər. Bildirilib ki, kitab təxminən iki il ərzində hazırlanıb.

Liam Kollinz Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı qələbədə hərbi potensialın gücləndirilməsinin, orduda aparılan islahatların və döyüş qabiliyyətinin artırılmasının mühüm rol oynadığını qeyd edib. Vurğulayıb ki, ordunun effektivliyi yalnız silah sistemlərinin sayından deyil, onların keyfiyyətindən və düzgün tətbiqindən də asılıdır.

O, həmçinin 44 günlük Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin şəhər döyüşlərinə hazırlıqsız olmasının və əks-hücumları düzgün planlaşdıra bilməməsinin onların müdafiə imkanlarını zəiflətdiyini deyib. Azərbaycan Ordusunun sürətli irəliləyişi qarşısında Ermənistan qüvvələrinin daha çox dağlıq ərazilərdə mövqe tutmağa çalışdığını qeyd edib.

Con Spenser isə vurğulayıb ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın hərbi əməliyyatları yalnız pilotsuz uçuş aparatlarının tətbiqi ilə deyil, mürəkkəb quru əməliyyatları, qoşunların koordinasiyası və düşmənin yanlış istiqamətə yönəldilməsi ilə də səciyyələnib. Qeyd edib ki, xüsusilə genişmiqyaslı aldatma əməliyyatının planlaşdırılması və icrası müasir müharibə təcrübəsi baxımından mühüm əhəmiyyət daşıyır.

"Azərbaycan Ordusu müxtəlif istiqamətlərdə döyüş əməliyyatlarını davam etdirərkən, bəzi hallarda müdafiə xəttini yarmaq mümkün olmadıqda alternativ planlara keçib. Düşməni yanlış istiqamətdə əsas hücumun həyata keçirildiyinə inandırmaq məqsədi daşıyan aldatma əməliyyatı bu baxımdan xüsusi diqqət çəkir. Qarabağda tətbiq olunan bu yanaşma müasir hərb tarixində aldatma əməliyyatlarının genişmiqyaslı və çoxşaxəli ola biləcəyini göstərir. Əməliyyat düşmənin diqqətini əsas istiqamətdən yayındırmaq, müdafiə qüvvələrinin yerləşməsinə təsir göstərmək və digər istiqamətlərdə hərbi fəaliyyət üçün imkan yaratmaq baxımından əhəmiyyətli olub", - deyə müəllif əlavə edib.

Təqdimat mərasimindən sonra müəlliflərin iştirakı ilə media brifinqi keçirilib.

Nəşr Azərbaycanın 44 günlük müharibədə əldə etdiyi qələbəyə dair xaricdə hazırlanmış ilk genişmiqyaslı və sistemli hərbi tədqiqatlardan biridir. Araşdırmaya hərbi tədqiqatlar sahəsində ixtisaslaşmış Vest-Point Hərbi Akademiyasının mütəxəssislərinin də cəlb edilməsi əsərin elmi və analitik əhəmiyyətini daha da artırır.

Əsərdə Qarabağ münaqişəsinin tarixi kökləri və Birinci Qarabağ müharibəsindən başlayaraq Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbəyə və sonrakı hərbi-siyasi proseslərə qədər geniş dövr əhatə olunur. Kitabda Azərbaycanın genişmiqyaslı müharibəyə hazırlıq strategiyası (Grand Strategy), "Dəmir yumruq" əməliyyatı və 44 günlük Vətən müharibəsinin əsas mərhələləri, Hadrut, Əmirvarlı, Füzuli, Zəngilan və Qubadlı rayonları istiqamətində Azərbaycan Ordusunun həyata keçirdiyi hərbi əməliyyatlar, Şuşa uğrunda döyüşlər, eləcə də 2023-cü ildə keçirilmiş antiterror tədbirləri ayrı-ayrı bölmələrdə təhlil edilir.

Kitabın diqqətçəkən məqamlarından biri Azərbaycanın qələbəsinin yalnız pilotsuz uçuş aparatlarının (PUA) tətbiqi ilə əlaqələndirilməsi barədə geniş yayılmış fikrin tənqidi təhlilidir. Müəlliflər hesab edirlər ki, qələbənin arxasında daha geniş amillər kompleksi - milli güc, dövlət quruculuğu, iqtisadi inkişaf, düzgün hərbi planlaşdırma və müasir döyüş konsepsiyalarının mənimsənilməsi dayanır.

Əsərdə Azərbaycanın hərbi uğurunun əsas səbəblərindən biri kimi "müasir döyüş sistemlərinin tətbiqi" konsepsiyasına dərindən yiyələnməsi göstərilir. Bu konsepsiya mövqelərin maskalanmasını, qüvvələrin səpələnməsini, kiçik bölmələrin manevr imkanlarından səmərəli istifadəni, düşmənin atəş vasitələrinin susdurulmasını və müxtəlif qoşun növlərinin birgə fəaliyyətinin əlaqələndirilməsini əhatə edir.

Tədqiqat təxminən 100 hərbi və mülki mütəxəssislə aparılmış müsahibələrə əsaslanır. Bununla yanaşı, müəlliflər əsas döyüşlərin baş verdiyi ərazilərə səfərlər edərək həmin məkanlarda yerində araşdırmalar aparıblar.

Kitab müəlliflərinin gəldiyi əsas qənaət ondan ibarətdir ki, hərbi qələbə yalnız döyüş meydanında qazanılmır. Belə bir qələbənin əldə olunmasının arxasında milli güc, ardıcıl dövlət və hərbi quruculuq siyasəti, iqtisadi potensial, effektiv kommunikasiya strategiyası və ideoloji fəaliyyət kimi mühüm amillər dayanır.

Kitabda Azərbaycanın Ali Baş Komandanı, Prezident İlham Əliyevin strategiyası, ölkə daxilində və beynəlxalq müstəvidə kommunikasiya fəaliyyətinin fəallığı, eləcə də dezinformasiyaya qarşı mübarizəsi xüsusi vurğulanır.

Qeyd edək ki, müəlliflər kitabın nəşrindən əvvəl 44 günlük müharibə zamanı Hadrut və Şuşa şəhərləri uğrunda döyüşlərin gedişinə dair ətraflı araşdırmalar aparıb və bu mövzuda məqalələr dərc etdiriblər.

Kitabın müəlliflərindən istefada olan polkovnik Liam Kollinz "Madison Policy Forum"un direktoru, "New America" təşkilatının Gələcəyin Təhlükəsizliyi Proqramının baş elmi işçisi və Yaxın Şərq İnstitutunun fəxri hərbi əməkdaşıdır. O, ABŞ Ordusunun Xüsusi Təyinatlı Qüvvələrində xidmət edib və polkovnik rütbəsində ehtiyata buraxılıb. 2016-2018-ci illərdə Ukrayna üzrə ABŞ-nin baş müdafiə müşavirinin icraçı köməkçisi vəzifəsində çalışıb. Prinston Universitetində dövlət idarəçiliyi üzrə magistr və fəlsəfə doktoru elmi dərəcələrini alıb.

Digər müəllif, istefada olan mayor Con Spenser Vest-Point Hərbi Akademiyasının Müasir Müharibə İnstitutunda şəhər döyüşləri üzrə kafedra rəhbəri, həmçinin Şəhər Müharibəsi Layihəsinin həmsədridir. ABŞ Ordusunda 25 ildən artıq xidmət edib və İraqda iki dəfə döyüş əməliyyatlarına qatılıb. O, şəhər döyüşləri üzrə dünyanın aparıcı mütəxəssislərindən biri hesab olunur.

Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət adından yaradılan bir sıra publik hüquqi şəxslərin fəaliyyətinin yenidən təşkili ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 iyun tarixli 700 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin strukturu" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin (bundan sonra - Agentlik) Aparatının işçilərinin say həddi 66 ştat vahidi, regional bölmələrinin işçilərinin say həddi 9 ştat vahidi müəyyən edilsin.

4. Agentliyin tabeliyində "Dövlət Ehtiyatlarının Saxlanılması Mərkəzi" (bundan sonra - Mərkəz) büdcə təşkilatı yaradılsın.

5. Müəyyən edilsin ki:

5.1. Mərkəz Agentlik tərəfindən yaradılan dövlət ehtiyatlarının saxlanılmasını həyata keçirir;

5.2. Mərkəzin işçilərinin say həddi 200 ştat vahididir.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. iki ay müddətində:

6.1.1. aşağıdakıları müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

6.1.1.1. Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısını;

6.1.1.2. Agentliyin Kollegiya üzvlərinin sayını və tərkibini;

6.1.1.3. Mərkəzin işçilərinin əməkhaqlarının (vəzifə maaşları, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər) məbləğlərini və əməyin ödənilməsi sistemini;

6.1.2. Agentlik tərəfindən yaradılan dövlət ehtiyatlarının saxlanılması və Mərkəzin cari fəaliyyətinin təşkili üçün zəruri olan aktivlərin Agentliyin balansından Mərkəzin balansına verilməsi ilə bağlı tədbirlər görülməsini təmin etsin;

6.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Agentlik Mərkəzin əsasnaməsini və strukturunu bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

8.1. Agentliyin və Mərkəzin fəaliyyətinin təşkili üçün tələb olunan vəsaiti hər il dövlət büdcəsinin layihəsində nəzərdə tutsun;

8.2. Mərkəzin 2026-cı ildə maliyyələşdirilməsini "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 292-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 564 nömrəli Fərmanının 1-ci hissəsinin1.11.6.10-cu abzasında nəzərdə tutulmuş vəsait hesabına təmin etsin;

8.3. "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, bu Fərmanın 4-cü hissəsində nəzərdə tutulan büdcə təşkilatının strukturunun və əməkhaqqı sisteminin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üçün tədbirlər görsün.

9. "Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 fevral tarixli 1594 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 105 (Cild I); 2024, № 2, maddə 145) 1-ci və 2-ci hissələri ləğv edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 noyabr 2026-cı il

S.Ə.Sadıqovun Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin sədri təyin edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**
Səbuhi Əhəd oğlu Sadıqov Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin sədri təyin edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 noyabr 2026-cı il

Milli Məclisin iclasında

Zəfər Günü Azərbaycan tarixində müstəsna yer tutur

Noyabrın 3-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyə 10 məsələ daxildir və ilk 2 məsələ Milli Məclisin qərar layihələridir. Diqqətə çatdırılıb ki, birinci məsələ 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı haqqındadır.



Spiker bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin tarixi Zəfərinin əhəmiyyəti ildən-ilə daha dolğun şəkildə üzə çıxır. 44 günlük Vətən müharibəsində qələbənin mahiyyəti 4 fundamental anlayışla ifadə edilə bilər. Bunlar ədalət, dövlətçilik, hüquq və quruculuq anlayışlarıdırlar. Ədalət anlayışı odur ki, torpaqlarımızın 30 illik işğalına son qoyulub.

8 noyabr Zəfəri dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına yol açıb. 2023-cü ilin sentyabr ayında keçirilən birgünlük antiterror əməliyyatı isə hərb tariximizin yeni şanlı səhifəsini təşkil edir. Həmin əməliyyat nəticəsində Azərbaycan ərazisində qanunsuz fəaliyyət göstərən kriminal xunta rejiminin varlığına son qoyulub.

Spikerin sözlərinə görə, dövlətçilik haqqında danışarkən qeyd edilməlidir ki, qələbə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyev tərəfindən ardıcıl həyata keçirilmiş güclü dövlət quruculuğunun qanunauyğun yekunu oldu. Böyük səylər hesabına yaradılan siyasi, iqtisadi, diplomatik və hərbi potensial tarixi qələbədə təcəssümünü tapdı. 8 noyabr Zəfəri xalqın, ordunun və dövlətin birliyinin ən yüksək ifadəsi oldu.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, BMT Təhlükəsizlik Şurasının, digər beynəlxalq təşkilatların onilliklər boyu kağız üzərində qalmış qərarları həyata keçirildi. Dövlətlərin ərazi bütövlüyü prinsipi və beynəlxalq hüququn gücü bərqərar edildi. Bu isə qələbənin mahiyyətini ifadə edən hüquq anlayışıdır.

Quruculuq anlayışına gəlincə, deməliyik ki, Qarabağın və Şərqi Zəngəzurun bərpa olunması, "Böyük qayıdış" proqramının icrası qələbəmizi real məzmunla zənginləşdirir. Keçmiş məcburi köçkünlərin doğma yurdlarına dönməsi azad olunmuş torpaqlarımıza həyat gətirir.

Bildirilib ki, Böyük qələbə Cənubi Qafqazda möhkəm sülhün bərqərar edilməsi üçün də tarixi imkan yaratdı. Dövlət başçısı İlham Əliyevin ardıcıl səyləri regionun dayanıqlı təhlükəsizlik arxitekturasının qurulmasına və əməkdaşlıq imkanlarının reallaşdırılmasına yönəldi.

Spiker əminliklə deyib ki, Azərbaycan Prezidentinin bütün layihələri kimi, bu layihə də uğurla başa çatdırılacaq.

Milli Məclisin Sədri Azərbaycana tarixi Zəfəri bəxş etmiş Müzəffər Ali Baş Komandana, qəhrəman əsgər və zabitlərimizə minnətdarlığını bildirib, onları ürəkdən təbrik edib. Spiker təklif edib ki, Zəfər Günü münasibətilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan xalqının və dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq. Spikerin təklifi alqışlarla qarşılanıb.

Çıxışına yekun vuran Milli Məclisin Sədri təəssüflə qeyd edib ki, xalqımız bu müharibədə itkilər də verib. Qələbə şəhidlərimizin və qazilərimizin canı və qanı bahasına əldə edilib. O, Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə isə möhkəm cansağlığı arzulayıb.

Məsələnin müzakirəsində Milli Məclisin komitə sədrləri Şahin İsmayılov, Zahid Oruc, Hicran Hüseynova, Tahir Rzayev, deputatlar Bəxtiyar Əliyev, Ceyhun Məmmədov, Vüqar Bayramov, Sahib Alıyev, Aydın Mirzəzadə, Asif Əsgərov, Əminə Ağazadə, Bəhruz Məhərrəmov, Azər Badamov, Fəzail İbrahimli çıxış ediblər. Deputatlar 8 Noyabr - Zəfər Gününün Azərbaycan tarixində müstəsna yer tutduğunu, xalqımızın milli iradəsinin, birliyinin və dövlətçilik gücünün təntənəsi olduğunu bildiriblər. Qeyd olunub ki, tarixi Qələbə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə yanaşı, ölkəmizin beynəlxalq mövqelərini möhkəmləndirib, regionda yeni geosiyasi reallıqlar yaradıb.

Çıxışlarda Vətən müharibəsi zamanı xalqın, ordunun və dövlətin nümayiş etdirdiyi sarsılmaz birlik, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların həmrəyliyi xüsusi vurğulanıb. Zəfərin Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursun Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsinin nəticəsi olduğu diqqətə çatdırılıb.

Deputatlar işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işlərinin, yaşayış məntəqələrinin yenidən qurulmasının və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışının Qələbənin real nəticələrini əks etdirdiyini bildiriblər. Çıxışçılar Zəfərin qorunmasının, milli birliyin möhkəmləndirilməsinin, dövlət müstəqilliyinin və təhlükəsizliyin təmin olunmasının, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılmasının vacibliyini qeyd ediblər. Həmçinin Azərbaycanın regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunması təşəbbüslərinə toxunaraq, ölkəmizin qalib dövlət kimi öz inkişafını davam etdirdiyini vurğulayıblar.

İclasda 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatının mətnini deputat Hikmət Məmmədov oxuyub **(Bəyanatın mətni qəzetin bugünkü nömrəsində dərc edilib).**

Sonra 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Milli Məclisin Bəyanatı səsə qoyularaq qəbul edilib.

Növbəti - Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) seçilməsi məsələsi ilə bağlı İnsan hüquqları komitəsinin sədri Zahid Oruc məlumat verib. Ombudsman seçkisinin yeni tarixi mərhələyə təsadüf etdiyini deyən komitə sədri bildirib ki, Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Qələbə Ombudsman təsisatının qarşısında yeni prioritetlər müəyyənləşdirib. Qeyd olunub ki, süni intellekt, rəqəmsal texnologiyalar və informasiya qarşıdurmaları insan hüquqları sahəsində yeni çağırışlar yaradıb.

Zahid Oruc Prezident İlham Əliyev tərəfindən Ombudsman vəzifəsinə təqdim olunan namizədlər barədə məlumat verib. Bildirilib ki, namizədlərin hər üçü ali hüquq təhsilli və müvafiq sahədə peşəkar təcrübəyə malik, hər biri şəxsi keyfiyyətlərinə görə bu vəzifəni tuta biləcək şəxslərdir.

Sonra Səbinə Əliyevanın, Ceyhun Qaracayevin və Elşanə Vəliyevanın namizədlikləri ayrı-ayrılıqda səsə qoyulub. Səbinə Əliyeva səs çoxluğu ilə İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) vəzifəsinə seçilib.

Yeni seçilmiş Ombudsman Səbinə Əliyeva vəzifəsinin icrasına başlaması ilə əlaqədar deputatlar qarşısında and içib, Prezident İlham Əliyevə və deputatlara ona göstərilən etimada görə təşəkkürünü bildirib.

Sonra spiker Sahibə Qafarova deyib ki, növbəti iki məsələ Azərbaycan Prezidentinin bir məktubu ilə parlamentə daxil olub və bunlar beynəlxalq müqavilələrin təsdiqi ilə bağlı qanun layihələridir. O, bu layihələrin "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə uyqun olaraq bir oxunuşda qəbul ediləcəyini söyləyib.

"Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə"nin təsdiq edilməsi barədə qanun layihəsi ilə bağlı Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məlumat verib. Komitə sədri bildirib ki, Azərbaycan-Özbəkistan münasibətləri dövlət başçılarının siyasi iradəsi və qardaşlıq münasibətlərinə əsaslanan ardıcıl siyasəti nəticəsində keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. O, 2026-cı il avqustun 23-də Daşkənddə imzalanmış sənədin dövlətlərimiz arasında dostluğun, müttəfiqlik və çoxşaxəli əməkdaşlığın möhkəmləndirilməsinə xidmət etdiyini deyib. Qeyd olunub ki, müqavilə tərəflərin suverenliyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə qarşılıqlı dəstəyi, beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyi təsbit edir. Sənəddə parlamentlərarası əlaqələrin genişləndirilməsi, siyasi məsləhətləşmələrin aparılması, ticarət-iqtisadi və investisiya əməkdaşlığının, nəqliyyat-logistika əlaqələrinin inkişafı, elm, təhsil, mədəniyyət və digər sahələrdə qarşılıqlı fəaliyyətin gücləndirilməsi nəzərdə tutulur.

Səməd Seyidov Azərbaycan-Özbəkistan münasibətlərinin türk dünyasında əməkdaşlığın inkişafı və regional sabitliyin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib. Müqavilənin iki ölkənin uzunmüddətli strateji maraqlarına xidmət edən mühüm sənəd olduğunu vurğulayıb.

Sonda qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. Komitə sədri bildirib ki, sənədin əsas məqsədi pensiya təminatı sahəsində əməkdaşlığı inkişaf etdirmək və hər iki ölkə vətəndaşlarının pensiya hüquqlarını təmin etməkdir. Sazişə əsasən, tərəflərin dövlətlərinin vətəndaşları pensiya təminatı sahəsində digər tərəfin dövlətinin qanunvericiliyi tətbiq edilərkən həmin dövlətin vətəndaşları ilə bərabər hüquqlara malikdirlər və bərabər öhdəliklər daşıyırlar. Sazişdə pensiyaların digər tərəfin dövlətinin ərazisinə köçürülməsi, sığorta stajının hesablanması, pensiya hüquqlarının müəyyən edilməsi, pensiyaların təyin olunması və ödənilməsi qaydaları, səlahiyyətli qurumlar arasında məlumat mübadiləsi, müraciət və şikayətlərə baxılması kimi məsələlər tənzimlənir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənədlə bağlı rəhbərlik etdiyi komitənin müsbət rəyini açıqlayandan sonra qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Sonra iclasda "Banklar haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Ətraf mühitin mühafizəsi haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) və "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələri qəbul olunub.

Spiker gündəliyin son 3 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu söyləyib.

Müzakirənin davamı olaraq Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, qanun layihəsi ölkəmizdə aqrar sahənin inkişafının dəstəklənməsi, bu sahəyə xarici mütəxəssislərin cəlb olunması və beynəlxalq təcrübədən istifadənin genişləndirilməsi məqsədi daşıyır. Nəzərə çatdırılıb ki, dəyişiklikdə aqroparkların rezidentləri tərəfindən Azərbaycan Respublikasının ərazisində əmək fəaliyyətinə cəlb edilən və müvafiq fəaliyyət sahəsində təcrübəyə malik aqronomların, bağçılıq üzrə mütəxəssislərin və baytar həkimlərin iş icazəsi alınması tələbindən azad edilməsi təklif olunur. Bu tənzimləmənin 2027-ci il yanvarın 1-dən 2032-ci il yanvarın 1-dək tətbiqi nəzərdə tutulur.

Sənədin müzakirəsi zamanı parlamentin komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, deputatlar Qüdrət Həsənquliyev, Elçin Mirzəbəyli, Azər Allahverənov, Naqif Həmzəyev çıxış edərək bəzi qeydlərini səsləndiriblər. Deputat Nurlan Həsənov qaldırılan məsələlərə aydınlıq gətirib.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Daha sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin (birinci oxunuş) mahiyyətini diqqətə çatdırıb. Bildirilib ki, qanun layihəsi İnzibati Xətalar Məcəlləsində hərbi xidmət əleyhinə olan inzibati xətalar üzrə prokuror nəzarətinin gücləndirilməsini nəzərdə tutur. Dəyişikliklərlə müvafiq qərarların (qərardadların), protokolların surətlərinin hərbi prokurora göndərilməsi təsbit edilir, həmçinin prokurorun həmin sənədlər üzrə müvafiq hərəkətlər etmək və qərar qəbul etmək səlahiyyətləri müəyyən olunur. Yuxarıda adı çəkilən inzibati xətalar üzrə prokurorun qərar qəbul etmək səlahiyyəti müəyyənləşdiyindən, həmin işlərə baxılmasında prokurorun iştirakını təmin edən İnzibati Xətalar Məcəlləsinin 54.6-cı maddəsinə müvafiq müddəanın əlavə edilməsi təklif olunur.

Qanun layihəsində həmçinin hərbi qulluqçuların xidməti vəzifələrinin xüsusiyyətini nəzərə alaraq, inzibati həbs tənbeh növü nəzərdə tutan inzibati xətalar haqqında işlərə 15 gün müddətində baxılması təsbit edilir.

Bundan başqa, zabit, gizir, miçman və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının məsuliyyətinin artırılması da təklif edilir. Sənəddə həmin şəxslərin bir gündən artıq hərbi hissədə və ya xidmət yerində olmamasının inzibati məsuliyyətə səbəb olması əksini tapıb. Bununla yanaşı, sanksiyanın yumşaldılması və alternativ cəza (cərimə) növünün müəyyənləşdirilməsi də təklif olunur.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verib. Qeyd olunub ki, layihəyə əsasən "Elektron ticarət haqqında" qanunun yalnız ölkə ərazisində həyata keçirilən elektron ticarətə tətbiqini nəzərdə tutan müddəa ləğv edilir. Bununla yanaşı, qanuna "texnoloji neytrallıq" anlayışı və müvafiq prinsip daxil edilir. Layihədə həmçinin "POS-terminal" anlayışı mövcud təcrübəyə uyğunlaşdırılaraq dəqiqləşdirilir, eləcə də ödənişin həyata keçirilməsi və elektron ticarət sahəsində ödəniş üsullarının təkmilləşdirilməsi ilə bağlı dəyişikliklər nəzərdə tutulur.

Bildirilib ki, qanunun tətbiq dairəsində "Azərbaycan Respublikasında" sözlərinin çıxarılması təklif olunur. Bu isə qanunla təsbit olunan fəaliyyətlərin daha geniş coğrafiyada tətbiqinə imkan verəcək. Qanunun 4-cü maddəsinə texnoloji neytrallıq prinsipi əlavə olunur, bu da ödənişlərin texnoloji baxımdan neytrallığını təmin edəcək. Digər dəyişiklik "POS-terminal" anlayışının yeni redaksiyada verilməsini özündə ehtiva edir. Belə ki, POS-terminal - nağdsız ödənişlərin (o cümlədən təmassız ödənişlərin) aparılması və nağd pul vəsaitinin alınması üçün nəzərdə tutulmuş avadanlıq, o cümlədən lazımi proqram təminatı ilə təmin edilmiş mobil cihaz, yəni mobil operatorların ümumistifadəli telekommunikasiya şəbəkələrində mobil xidmət alan telefon aparatı və digər son avadanlıq kimi təsbit olunur. Bu dəyişikliklə mobil telefonlar yalnız ödəniş etmək üçün deyil, həm də ödənişləri qəbul etmək üçün bir vasitə olacaq.

Sənəddə həmçinin elektron ticarət iştirakçılarına qoyulan tələblər dəqiqləşdirilir. Dəyişikliklərə əsasən, bu tələblərə ödəniş üsulları, o cümlədən nağdsız ödənişlərin POS-terminal, elektron pul kisəsi və ya digər vasitələrlə aparılması barədə məlumatların təqdim edilməsi daxildir. Eyni zamanda elektron ticarət çərçivəsində malların, işlərin və xidmətlərin dəyərinin nağdsız ödənilməsinin ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirilməsi nəzərdə tutulur. Bununla yanaşı, layihədə müqavilələrin elektron sənəd formasında təsdiqlənməsi təklif olunur.

Deputatlar Müşfiq Məmmədli və Bəhruz Məhərrəmov məsələ ilə bağlı fikir və təkliflərini açıqladıqdan sonra, qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) seçilməsi haqqında

Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 6-cı bəndinə və "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 2.1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) vəzifəsinə təqdim edilmiş Səbinə Yaşar qızı Əliyevanın, Ceyhun Yasinəli oğlu Qaracayevin və Elşanə Rafiq qızı Vəliyevanın namizədliklərini müzakirə edərək **qərara alır:**

1. Səbinə Yaşar qızı Əliyeva Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) seçilsin.

2. Bu Qərar 2026-cı il noyabrın 29-dan qüvvəyə minir.

Sahibə QAFAROVA,
Azərbaycan Respublikası
Milli Məclisinin Sədri

Bakı şəhəri, 3 noyabr 2026-cı il

8 Noyabr - Zəfər Günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin BƏYANATI

2020-ci ilin sentyabr - noyabr aylarında 44 günlük Vətən müharibəsində Zəfər Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın, ordumuzun və dövlətimizin birliyi sayəsində əldə edilmişdir. Azərbaycan milli maraqlarını müdafiə etmək üçün lazımi siyasi iradəyə, siyasi, iqtisadi, hərbi və diplomatik imkanlara malik olduğunu nümayiş etdirmişdir.

Silahlı Qüvvələrimiz yüksək döyüş məharəti nümayiş etdirərək dünya hərb tarixinə şanlı səhifələr yazmışlar. Düşmənin uzun illər ərzində qurduğu, keçilməz hesab edilən müdafiə xətləri yarılmış, hava hücumundan müdafiə sistemi və hərbi hava qüvvələri sıradan çıxarılmışdır. İşğalçı qüvvələrə ağır zərbələr endirilmiş, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilmişdir. Ölkəmizin işğal altında olan ərazisinin böyük bir hissəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Hadrut qəsəbəsi, ümumən 300-ə yaxın yaşayış məntəqəsi düşmən tapdağından azad edilmişdir. Vətən müharibəsinin ən şərəfli səhifələrindən biri noyabr ayının 8-də Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın işğaldan azad edildiyi gün olmuşdur.

Azərbaycan şəhid və qazilərinin canı və qanı bahasına BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının, İslam Əməkdaşlığı Təşkilatının, ATƏT-in və digər beynəlxalq təşkilatların qətnamə və qərarlarının icrasını təmin edərək, tarixi ədaləti və beynəlxalq hüquq normalarının və prinsiplərinin qüvvəsini bərpa etmişdir.

Azərbaycan dövlətinin diplomatik səyləri Kəlbəcər, Ağdam və Laçın rayonlarının sonrakı günlərdə dinc yolla azad edilməsinə gətirib çıxarmışdır.

2020-ci ildə qazanılmış tarixi qələbə Azərbaycan Respublikasının dövlət suverenliyinin tam bərpası üçün möhkəm təməl yaratmışdır. 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatı nəticəsində qanunsuz silahlı birləşmələr tərk-silah edilmiş, separatçı rejim ləğv olunmuş və ölkənin bütün ərazisində Konstitusiya quruluşu bərqərar edilmişdir. Xankəndi şəhərində və azad edilmiş digər yaşayış məntəqələrində Dövlət bayrağının ucaldılması milli iradəmizin təntənəsini və dövlətçiliyimizin sarsılmazlığını əyani təcəssüm etdirmişdir.

Döyüş meydanlarında hərbi qələbələr Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli dövlətçilik konsepsiyasının ardıcıl həyata keçirilməsinin qanunauyğun nəticəsi olmuşdur. İqtisadiyyatın inkişaf etdirilməsi, müasir ordunun qurulması, ölkənin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyələndirilməsi doğma torpaqlarımızın işğaldan azad edilməsi üçün lazımi şərait yaratmışdır. Bütün xalqın qüvvələrinin "dəmir yumruq" kimi birləşdirilməsi mövcud imkanları taleyüklü milli vəzifəni yerinə yetirməyə qadir olan qarşısıalınmaz qüvvəyə çevirmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi və hərbi liderliyi tarixi qələbənin qazanılmasında müstəsna rol oynamışdır. Onun strateji baxışı, siyasi iradəsi, sərkərdəlik məharəti və tarixin həlledici məqamlarında düzgün qərarlar qəbul etmək qabiliyyəti hərbi, diplomatik və informasiya istiqamətlərində fəaliyyəti vahid hədəfə yönəltməyə imkan vermişdir. Dövlət başçısının rəhbərliyi ilə ölkənin iqtisadi potensialı müdafiə qüdrətinə, ümumxalq dəstəyi sarsılmaz qətiyyətə, döyüş meydanında qələbələr isə uzunmüddətli siyasi nəticələrə çevrilmişdir.

Prezident İlham Əliyev xalqı vətən torpaqlarının azad edilməsi ideyası ətrafında birləşdirərək və bu amalı həyata keçirərək tarixi bir missiyanı yerinə yetirmişdir. Xalqımız öz müqəddəratını özü müəyyənləşdirməyə, hüquqlarını müdafiə etməyə və qarşıya qoyduğu məqsədləri əldə etməyə qüdrəti çatan yenilməz xalq olduğunu göstərmişdir.

Dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpası Cənubi Qafqazda uzunmüddətli sülh yaradılması üçün yeni imkanlar açmışdır. Müharibədən sonra sülh gündəliyinin təşəbbüsçüsü olan Azərbaycan beynəlxalq hüquq normalarına və prinsiplərinə əsaslanaraq dövlətlərarası münasibətlərin normallaşdırılması üçün ardıcıl səylər göstərir. Bizim dövlətimiz dayanıqlı sülhü regionun bütün xalqlarının təhlükəsizliyinin və rifahının zəruri şərti hesab edir.

Bu baxımdan 2025-ci il avqustun 8-də Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə əldə edilmiş Vaşinqton razılaşmaları xüsusi əhəmiyyətə malikdir. Azərbaycanla Ermənistan arasında birgə bəyannamənin imzalanması, sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında sazişin mətninin paraflanması uzun illər davam etmiş qarşıdurmanın aradan qaldırılması yolunda mühüm addım olmuşdur. Bu razılaşmalar sülh prosesinin irəli aparılmasına, kommunikasiyaların açılmasına, qarşılıqlı hörmətə və revanşizmdən imtinaya əsaslanan münasibətlər qurulmasına şərait yaratmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi hesab edir ki, uzunmüddətli sülh yaradılması qəbul olunmuş öhdəliklərin yerinə yetirilməsini, ərazi iddialarına bəhanə verə bilən şərtlərin aradan qaldırılmasını, etimadsızlığa və düşmənçiliyə meydan açan hərəkətlərə yol verilməməsini tələb edir. Beynəlxalq birlik region dövlətlərinin suveren seçiminə və təşəkkül tapmış yeni reallıqlara hörmətlə yanaşaraq, birbaşa dialoqa və əməli əməkdaşlığa kömək göstərməlidir.

Bu gün azad Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. İşğal dövründə viran qoyulmuş torpaqlarda şəhər və kəndlər yenidən inşa olunur, müasir nəqliyyat və enerji şəbəkələri, təhsil və tibb müəssisələri, digər obyektlər yaradılır. Tarixi, mədəni və dini abidələr bərpa olunur, iqtisadi fəaliyyət və əhalinin layiqli yaşayışı üçün şərait təmin edilir. Həyata keçirilən "Böyük qayıdış" proqramı Zəfərə konkret quruculuq məzmunu verir. Keçmiş məcburi köçkünlərin doğma yurdlarına qaytarılması nəticəsində onların pozulmuş hüquqları və sabaha inamı bərpa olunur, soydaşlarımız əcdadlarının torpağına qovuşur, işğalçıların məhv etməyə çalışdıqları həyat yenidən dirçəldilir.

Azərbaycan Respublikasının Milli Məclisi əmin olduğunu bildirir ki, ölkənin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi dövlət müstəqilliyini və suverenliyi qorumağın vacib şərti olaraq qalır. Güclü Azərbaycan öz təhlükəsizliyinin etibarlı təminatçısı və regional sabitliyin mühüm amilidir.

Biz Prezident İlham Əliyevin həyata keçirdiyi dövlətçiliyin möhkəmləndirilməsi, xalqın rifahının yüksəldilməsi, azad edilmiş ərazilərin bərpası və uzunmüddətli sülhün bərqərar edilməsi xəttini qətiyyətlə dəstəklədiyimizi bildiririk. Parlament həmin vəzifələrin yerinə yetirilməsi üçün zəruri qanunvericilik bazasını bundan sonra da təmin edəcək, milli maraqların müdafiəsi üçün parlament diplomatiyasının imkanlarından səmərəli istifadə edəcəkdir.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevi, Silahlı Qüvvələrimizin əsgər və zabitlərini, şəhid ailələrini və qaziləri, bütün xalqımızı Zəfər Günü münasibətilə təbrik edir.

Tarixi qələbəmizin nailiyyətlərini qorumaq, müstəqil Azərbaycanı daha da möhkəmləndirmək, gələcək nəsillərə güclü dövləti miras qoymaq hamımızın borcudur.

(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2026-cı il 3 noyabr tarixli iclasında qəbul edilmişdir).



İlham Əliyevə nüfuz qazandıran müstəqil siyasət

Dünya siyasətində yeni güc mərkəzlərinin formalaşdığı, geosiyasi maraqların toqquşduğu və beynəlxalq münasibətlərin yeniləndiyi bir vaxtda Azərbaycanın tutduğu mövqe diqqət çəkir. Coğrafi baxımdan Şərqlə Qərbin, Şimalla Cənubun qovuşuğunda yerləşən ölkəmiz bu üstünlüyü təkcə tranzit imkanlarına deyil, həm də müstəqil siyasi kursunun, fəal diplomatiyasının və genişlənən tərəfdaşlıq əlaqələrinin mühüm dayağına çevirib.

Bu gün Bakı ilə dünyanın müxtəlif siyasi və iqtisadi mərkəzləri arasında qurulan dialoq, irəli sürülən təşəbbüslər və həyata keçirilən birgə layihələr Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan çəkisini nümayiş etdirir. Ölkəmiz artıq qlobal proseslərin təsirini qəbul edən tərəf olmaqla kifayətlənmir, eyni zamanda regional və beynəlxalq əməkdaşlığın istiqamətlərinin müəyyənləşməsində sözünü deyir.

Bu yüksəlişin təməlində Prezident İlham Əliyevin müəyyənləşdirdiyi və ardıcıl həyata keçirdiyi müstəqil, praqmatik və çoxşaxəli xarici siyasət strategiyası dayanır. Dövlət başçısının siyasi iradəsi, beynəlxalq prosesləri düzgün qiymətləndirməsi, dəyişən geosiyasi reallıqlara çevik münasibəti və milli maraqlara söykənən diplomatik yanaşması Azərbaycanın xarici siyasətinin əsas xüsusiyyətlərini təşkil edir. Bu siyasətin başlıca üstünlüyü ondan ibarətdir ki, ölkəmiz müxtəlif güc mərkəzləri ilə münasibətlərini qarşıdurma məntiqi üzərində deyil, qarşılıqlı hörmət, bərabərhüquqlu əməkdaşlıq və ortaq maraqlar əsasında qurur. Azərbaycan heç bir geosiyasi qütbün qarşısında seçim etməyə məcbur qalmadan, öz milli maraqlarına uyğun tərəfdaşlıq istiqamətlərini müəyyənləşdirir. Məhz bu müstəqil siyasi xətt ölkəmizin beynəlxalq mövqeyinin möhkəmlənməsinə, etibarlı tərəfdaş kimi qəbul edilməsinə şərait yaradır.

Azərbaycanın beynəlxalq nüfuzunun artmasını şərtləndirən mühüm amillərdən biri dünyanın aparıcı dövlətləri ilə münasibətlərinin yeni məzmun və keyfiyyət mərhələsinə yüksəlməsidir. Bu baxımdan ABŞ ilə əlaqələrin inkişafı xüsusi əhəmiyyət daşıyır. 2025-ci il avqustun 7-8-də Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfəri və Ağ Evdə keçirilən görüş iki ölkə arasında münasibətlərin inkişafında mühüm siyasi hadisə kimi yadda qaldı. Görüş zamanı Donald Trampın Azərbaycan Prezidentinə Ağ Evin rəmzi açarını təqdim etməsi dövlətimizin başçısına göstərilən ehtiramın simvolik ifadəsi oldu. Səfər çərçivəsində əldə edilmiş razılaşmaların davamı kimi 2026-cı il fevralın 10-da Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması ikitərəfli münasibətləri yeni institusional mərhələyə yüksəltdi. Sənəd regional bağlantılar, enerji, ticarət, nəqliyyat, investisiyalar, süni intellekt, rəqəmsal infrastruktur və təhlükəsizlik sahələrində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Bu sənəd Azərbaycanın beynəlxalq tranzit və iqtisadi mərkəz kimi mövqeyinin möhkəmlənməsi, eləcə də Cənubi Qafqazda sülh və regional əməkdaşlıq imkanlarının genişlənməsi baxımından mühüm perspektivlər açır.

Çinlə münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi də Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindəndir. Prezident İlham Əliyevin 2025-ci ilin aprelində Çinə dövlət səfəri zamanı imzalanmış Birgə Bəyannamə iki ölkə arasında siyasi dialoqun, iqtisadi-ticarət əlaqələrinin, nəqliyyat-logistika əməkdaşlığının və humanitar münasibətlərin genişləndirilməsi üçün yeni imkanlar yaradıb. Dünyanın ən böyük iqtisadi mərkəzlərindən sayılan Çinlə tərəfdaşlıq Azərbaycanın "Şərq-Qərb" nəqliyyat əlaqələrindəki rolunu artırmaqla yanaşı, ölkəmizin qlobal iqtisadi proseslərə inteqrasiyasına da töhfə verir. ABŞ və Çin kimi fərqli geosiyasi və iqtisadi mərkəzlərlə strateji tərəfdaşlıq münasibətlərinin qurulması Azərbaycanın müstəqil xarici siyasətinin mühüm göstəricisidir.

Ölkəmizin Avropa istiqamətli beynəlxalq əməkdaşlıq strategiyası da xüsusi yer tutur. Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olmaqla yanaşı, enerji təhlükəsizliyi, nəqliyyat, investisiya və "yaşıl enerji" sahələrində mühüm tərəfdaşdır. 2022-ci ildə imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu bu əməkdaşlığın hüquqi və siyasi əsaslarını gücləndirib. Azərbaycanın Avropanın enerji təchizatının şaxələndirilməsində artan rolu ölkəmizin strateji əhəmiyyətini daha da yüksəldir. "Cənub qaz dəhlizi" vasitəsilə həyata keçirilən enerji əməkdaşlığı təkcə iqtisadi layihə deyil, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə verən mühüm geosiyasi amildir. 2026-cı il martın 11-də Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Bakıya səfəri və Prezident İlham Əliyevlə görüşü bu əlaqələrin inkişafında növbəti əhəmiyyətli mərhələ oldu. Görüşdə siyasi dialoqun dərinləşdirilməsi, enerji və nəqliyyat əməkdaşlığı, investisiyalar, rəqəmsal transformasiya və regional təhlükəsizlik məsələləri diqqət mərkəzində saxlanıldı. Eyni zamanda Azərbaycanın Orta dəhlizdəki strateji mövqeyi və bərpaolunan enerji sahəsində əməkdaşlıq imkanları xüsusi vurğulandı. Bütün bunlar göstərir ki, Azərbaycan-Avropa münasibətləri ənənəvi enerji tərəfdaşlığını aşaraq daha geniş iqtisadi və siyasi məzmun kəsb edir.

Türkiyə ilə münasibətlər isə Azərbaycanın xarici siyasətində xüsusi strateji və mənəvi əhəmiyyətə malikdir. "Bir millət, iki dövlət" prinsipi üzərində qurulan bu münasibətlər Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəlib. İki ölkə arasında siyasi, hərbi, iqtisadi, enerji, müdafiə sənayesi, təhsil və mədəniyyət sahələrində əməkdaşlıq regional təhlükəsizliyin və sabitliyin mühüm dayaqlarından biridir. Türkiyə ilə Azərbaycan arasında formalaşmış güclü müttəfiqlik türk dünyasının inteqrasiyasına da mühüm təkan verir. Bu inteqrasiyanın genişlənməsində Türk Dövlətləri Təşkilatının fəaliyyəti xüsusi yer tutur. Azərbaycan təşkilatın fəal üzvü və təşəbbüskar dövlətlərindən biri kimi türk dövlətləri arasında siyasi həmrəyliyin, iqtisadi əlaqələrin, nəqliyyat imkanlarının və mədəni-humanitar əməkdaşlığın gücləndirilməsinə ardıcıl töhfə verir. Ortaq tarixi, dili və mədəniyyəti birləşdirən bu dövlətlər arasında münasibətlərin yeni mərhələyə yüksəlməsi Avrasiya məkanında mühüm əməkdaşlıq platformasının formalaşmasına xidmət edir.

Mərkəzi Asiya ölkələri ilə əlaqələrin dərinləşməsi də Azərbaycanın strateji baxışının mühüm tərkib hissəsidir. Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla qurulan tərəfdaşlıq münasibətləri Xəzər hövzəsində iqtisadi və nəqliyyat inteqrasiyasını gücləndirir. Azərbaycanın 2025-ci ildə Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu üzvü olması bu əməkdaşlığın coğrafiyasını və siyasi əhəmiyyətini daha da genişləndirib. Beləliklə, Xəzərin iki sahilində yerləşən ölkələrin qarşılıqlı əlaqələri yeni geoiqtisadi məzmun qazanır, Azərbaycan isə Mərkəzi Asiya ilə Avropa arasında etibarlı körpü rolunu möhkəmləndirir.

Rusiya, İran, Pakistan, Gürcüstan və digər qonşu, eləcə də tərəfdaş dövlətlərlə münasibətlər də regional siyasətin mühüm istiqamətlərindəndir. Azərbaycanın bu ölkələrlə əlaqələrində qarşılıqlı suverenliyə hörmət, təhlükəsizlik, iqtisadi əməkdaşlıq və nəqliyyat-kommunikasiya imkanlarının inkişafı əsas yer tutur. Xüsusilə Azərbaycan-Gürcüstan-Türkiyə əməkdaşlığı Cənubi Qafqazın beynəlxalq nəqliyyat və enerji xəritəsində mövqeyini gücləndirib. "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin inkişafı isə ölkəmizin həm regional, həm də qlobal iqtisadi əlaqələrdə əhəmiyyətini artırır.

Azərbaycanın beynəlxalq nüfuzunun mühüm göstəricilərindən biri də qlobal təşəbbüslərlə çıxış etmək və beynəlxalq təşkilatlarda fəal mövqe nümayiş etdirmək bacarığıdır. Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə ölkəmiz təşkilatın beynəlxalq nüfuzunun gücləndirilməsinə, üzv dövlətlər arasında həmrəyliyin artırılmasına və inkişaf etməkdə olan ölkələrin maraqlarının müdafiəsinə mühüm töhfələr verdi. 2024-cü ildə Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransı - COP29 isə Azərbaycanın qlobal problemlərin həllində məsuliyyətli tərəfdaş kimi mövqeyini nümayiş etdirdi. Bu mötəbər tədbirdə əldə olunan iqlim maliyyələşməsi üzrə razılaşmalar, Paris Sazişinin 6-cı maddəsinin tətbiqinə dair qərarlar və Bakı təşəbbüsləri ölkəmizin beynəlxalq iqlim diplomatiyasına verdiyi töhfənin miqyasını göstərdi.

Bu gün Azərbaycanın beynəlxalq fəaliyyəti təkcə siyasi və iqtisadi münasibətlərlə məhdudlaşmır, eyni zamanda humanitar diplomatiya, mədəniyyətlərarası dialoq, təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlıq ölkəmizin beynəlxalq nüfuzunun mühüm komponentlərinə çevrilib. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildən həyata keçirilən "Bakı Prosesi" müxtəlif sivilizasiyalar və mədəniyyətlər arasında dialoqun təşviqinə xidmət edən mühüm beynəlxalq platformadır. Bu təşəbbüs Azərbaycanın regional deyil, həm də qlobal humanitar gündəliyə də töhfə vermək əzmində olduğunu nümayiş etdirir. Əlbəttə, beynəlxalq nüfuzun möhkəmləndirilməsi davamlı prosesdir və əldə edilən siyasi uğurların iqtisadi nəticələrlə, yeni investisiyalarla, texnoloji inkişafla və insanların rifahının yüksəlməsi ilə tamamlanması xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biri tərəfdaşlıq əlaqələrini real layihələrə, yeni istehsal imkanlarına, müasir infrastrukturun inkişafına və qeyri-neft sektorunun genişlənməsinə çevirməkdir. Enerji keçidi, rəqəmsal iqtisadiyyat, süni intellekt, "yaşıl enerji" və beynəlxalq logistika sahələrində mövcud imkanlardan səmərəli istifadə ölkəmizin gələcək inkişafında mühüm rol oynayacaq.

Bu gün Azərbaycanın beynəlxalq nüfuzu onun seçdiyi siyasi kursun, möhkəmlənən dövlətçilik dayaqlarının və ardıcıl diplomatik fəaliyyətinin məntiqi nəticəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət ölkəmizə müxtəlif siyasi və iqtisadi mərkəzlərlə münasibətləri milli maraqlar əsasında inkişaf etdirmək, regional proseslərdə təşəbbüskar mövqe tutmaq və qlobal əməkdaşlığa öz töhfəsini vermək imkanı yaradıb.

Dünya dəyişir, beynəlxalq münasibətlər sistemi yeni sınaqlarla üzləşir. Belə bir şəraitdə Azərbaycanın qarşısında duran hədəf qazandığı nüfuzu daha da möhkəmləndirmək, tərəfdaşlıq coğrafiyasını genişləndirmək və milli maraqlarını beynəlxalq əməkdaşlığın imkanları ilə uzlaşdırmaqdır. Güclü dövlət təkcə öz maraqlarını qoruyan deyil, həm də ətrafında etimad, sabitlik və əməkdaşlıq mühiti yarada bilən dövlətdir. Azərbaycanın beynəlxalq siyasətdə qazandığı mövqe də məhz bu strateji düşüncənin və müstəqil dövlətçilik iradəsinin ifadəsidir.

Elşən QƏNİYEV,
"Azərbaycan"

Azərbaycan və Gürcüstan praqmatik tərəfdaşlığa sadiqdirlər

Oktyabrın sonlarında Azərbaycanla Gürcüstan arasında baş tutan iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 11-ci iclası iki ölkənin praqmatik tərəfdaşlığa sadiqliyini nümayiş etdirdi. Bu zirvə təkcə ikitərəfli iqtisadi platforma kimi deyil, həmçinin regional nəqliyyat və enerji sahəsində gələcək prioritetləri müəyyənləşdirən mühüm tədbir kimi rol oynadı.



Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin aparıcı məsləhətçisi Nəsibə MİRZƏYEVA qəzetimizə açıqlamasında qeyd etdi ki, Azərbaycan Gürcüstanın ən böyük ticarət və investisiya tərəfdaşlarından biri kimi ölkənin makroiqtisadi sabitliyində mühüm paya sahibdir. Statistik göstəricilərə əsasən, bu ilin ilk 9 ayında iki ölkə arasında ticarət dövriyyəsi 14,1 faiz artaraq, ümumilikdə, 1 milyard 109 milyon ABŞ dollarına çatıb. Bu gün Gürcüstanın ümumi ticarətində Azərbaycanın payı 5,4 faiz təşkil etməklə, tərəfdaş ölkələrin reytinqində 5-ci yerdə qərarlaşıb. İxrac sahəsində həcm 6,9 faiz artaraq 566 milyon 665 min dollara çatıb. Bununla da Azərbaycan Gürcüstan üçün ixracatçı ölkələr arasında Qırğızıstan və Çindən sonra üçüncü yeri tutub. "Azərbaycanın Gürcüstana yatırdığı investisiyaların ümumi həcmi isə 4 milyard ABŞ dollarına yaxındır. 2025-ci ildəki 214 milyon dollarlıq sərmayə ilə Azərbaycan Böyük Britaniyadan sonra Gürcüstanın ikinci ən böyük sərmayədar ölkəsi olub. Turizm və pul köçürmələrində də müsbət dinamika müşahidə edilir. May ayından Bakı-Tbilisi qatarının bərpası və hava əlaqələri sayəsində 9 ayda 13,1 faiz artımla Azərbaycan Gürcüstana ən çox turist göndərən 5-ci ölkədir", - deyə o əlavə etdi.

N.Mirzəyeva dedi ki, iclasın əsas müzakirə mövzularından biri də nəqliyyat-tranzit sahəsində əməkdaşlıq məsələləri idi. Bu gün "Şərq-Qərb" nəqliyyat qovşağının operativliyinin artırılması istiqamətində Bakı-Tbilisi-Qars dəmir yolunun keçid qabiliyyəti 5 milyon tona çatdırılıb. Həmçinin Gürcüstanın icra etdiyi "Şərq-Qərb" magistralı dəmir yollarının müasirləşdirilməsi, Anakliya dərinözüllü dəniz limanı və Tbilisinin yeni hava limanı layihələri bu infrasturukturu tamamlayır.

Ekspert vurğuladı ki, iclasın ən mühüm nəticələrindən bir də İpək yolu birgə beynəlxalq avtomobil buraxılış məntəqəsinin fəaliyyətə başlaması haqqında sazişin imzalanması olub: "İclas çərçivəsində tərəflər, həmçinin dövlət sərhədinin delimitasiyası və demarkasiyası prosesini də müzakirə ediblər. İrakli Kobaxidzenin bəyan etdiyi kimi, razılaşdırılmamış məsələlərin dostluq müstəvisində və sürətləndirilmiş tempdə davam etdirilməsi qərarı alınıb. Sərhəd delimitasiyası üzrə 15 razılaşdırılmamış hissənin müzakirəsi ilə bağlı məsələ iclasın diqqətçəkən diplomatik nəticəsi hesab oluna bilər. Sərhəd məsələlərində konstruktiv dialoqun bərpası, qarşılıqlı olaraq ərazi bütövlüyünün dəstəklənməsi və mədəni-humanitar sahədə atılan addımlar iki ölkə arasındakı strateji tərəfdaşlığın sarsılmazlığını təsdiq edir".

N.Mirzəyeva bildirdi ki, Azərbaycanın Gürcüstanın əsas təbii qaz tədarükçüsü olması onun daxili enerji bazarının sabitliyini təmin edir. Şərq-Qərb dəhlizi üzərindən artan yükdaşımaları da öz növbəsində Gürcüstana mühüm tranzit və logistika gəlirləri gətirəcək. İkitərəfli ticarətdə müsbət saldo xarici ticarət balansına da yaxşı təsir göstərir. Avtomobil reixracı ilə yanaşı, qida, tikinti materialları, dərman məhsullarının ixracındakı artım da bu sahənin şaxələnməsinə kömək edir.

Ümumilikdə 11-ci hökumətlərarası komissiyanın yekununda əldə olunmuş razılaşmalar Bakı və Tbilisi arasında iqtisadi əlaqələrin təkcə ticarətlə məhdudlaşmadığını, həm də qlobal logistika və enerji zəncirində əvəzedilməz regional oxa çevrildiyini nümayiş etdirir.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Makronun uğursuz siyasəti və dərinləşən böhran

Fransanı bürüyən etiraz dalğası və narazılığın pik həddə çatması mövcud hakimiyyətə etimadsızlığın nəticəsidir

Fransada həftələrdir səngimək bilməyən kütləvi etiraz aksiyaları və nümayişçilərin təhlükəsizlik qüvvələri ilə sərt toqquşmaları ölkənin növbəti, daha dərin siyasi və sosial böhran mərhələsinə qədəm qoyduğunu aydın şəkildə nümayiş etdirir. Fransada təhsil sahəsindəki problemlər səbəbindən liseylərdə başlayan lokal narazılıqlar qısa müddətdə yüz minlərlə insanı küçələrə tökən genişmiqyaslı etiraz dalğasına çevrildi. Sentyabrın ikinci yarısından etibarən alovlanan kütləvi hərəkat Emmanuel Makron hakimiyyətinin illərdir yığılıb qalan uğursuz və yarıtmaz idarəçilik kursunun məntiqi nəticəsidir.

Dövlət strukturlarının və təhsil ocaqlarının blokadaya alınması ilə daha da kəskinləşən proseslər gənclərin, həmkarlar ittifaqlarının və "sarı jiletlilər" kimi müxtəlif sosial təbəqələrin vahid cəbhədə birləşməsinə gətirib çıxarıb. Yüzlərlə məktəb və universitetdə dərslərin iflic olması, küçələrdə polislə nümayişçilər arasında baş verən şiddətli qarşıdurmalar fonunda hakimiyyət dialoq qurmaq əvəzinə, yenə hüquq-mühafizə orqanlarının gücünə sığınır. Təhlükəsizlik tədbirlərinin bir qədər də sərtləşdirilməsi və təzyiqlərin artırılması mövcud gərginliyi daha da alovlandırır.

Paris və digər böyük şəhərlərdə yarım milyondan çox insanın iştirak etdiyi aksiyalar, noyabrın ilk həftəsində gözlənilən ümummilli tətil çağırışları Yelisey sarayının vəziyyətə nəzarəti itirdiyini göstərir. Kütləvi narazılığın kökündə duran təməl səbəblər isə Makronun idarəçiliyi dövründə dərinləşən sosial-iqtisadi bərabərsizlik və əhalinin gələcəyə olan inamının sarsılmasıdır. Yaşayış xərclərinin sürətlə yüksəlməsi, mənzil böhranı, enerji daşıyıcılarının qiymətindəki kəskin artımlar və "pensiya islahatları" adı altında mübahisəli qərarlar sadə vətəndaşların çiyninə ağır maliyyə yükü salıb.

Hörmüz boğazındakı gərginlik və xarici böhranlar nəticəsində enerji qiymətlərinin 20 faizdən çox bahalaşması da ölkədəki sosial müdafiə sisteminin nə dərəcədə aciz olduğunu bir daha üzə çıxarıb. İkinci Dünya müharibəsindən sonra formalaşmış və dövlətlə cəmiyyət arasında həmrəyliyi təmin edən ictimai müqavilə artıq tamamilə dağılmaqdadır. Hökumətin mövcud problemlərdə müxalifəti günahlandırmaq cəhdləri isə cəmiyyət tərəfindən qarşılıq görmür, çünki xalq vədlərlə real həyat şəraiti arasında böyük uçurumu aydın görür.



Miqrasiya siyasətindəki uğursuzluqları etirazların əsas səbəbi kimi qələmə verməyə çalışan rəsmi Paris faktiki olaraq öz sosial məsuliyyətindən yayınmağa cəhd edir. Dövlətin öz fundamental vəzifələrini yerinə yetirə bilməməsi, inteqrasiya üçün ən vacib platformalar olan təhsil müəssisələrini taleyin öhdəsinə buraxması sosial böhranı daha da dərinləşdirir. Hakimiyyətin bu problemləri cəmiyyəti parçalayan ritorika ilə ört-basdır etmək cəhdi isə narazılığı daha da artırır.

Yaranmış xaosdan və idarəçilik böhranından istifadə edən siyasi qüvvələr isə öz mövqelərini sürətlə möhkəmləndirir. Mərkəzçi qüvvələrin xalqın sosial tələblərinə adekvat cavab verə bilməməsi nəticəsində seçicilərin alternativlərə meyli kəskin şəkildə artır. Təsadüfi deyil ki, oktyabr iğtişaşlarından sonra keçirilən rəy sorğularında Marin Le Penin reytinqinin 36-38 faizə yüksəlməsi və rəqiblərini üstələməsi Makron siyasətinə qarşı ictimai cavabın nə qədər kəskin olduğunu ortaya qoyur. Nəticədə Yelisey sarayının cəmiyyətdən təcrid olunmuş siyasəti sağ radikalizmin hakimiyyətə gəlişinə zəmin hazırlayır. Prezident Makronun idarəçilik sisteminə olan etimadın 15 faizə qədər aşağı düşməsi siyasi böhranın ciddiliyini sübut edir. Yaranmış mənzərə sosial narazılıqların getdikcə Makron rejiminə və onun yürütdüyü siyasi xəttə qarşı birbaşa etirazlara çevrildiyini təsdiqləyir. Hakimiyyətin cəmiyyətdən təcrid olunması və problemləri düzgün qiymətləndirə bilməməsi nəticəsində siyasi mərkəz zəifləyir, bu isə ifrat sağçı qüvvələrin mövqelərini möhkəmləndirməsinə şərait yaradır. Yaxınlaşan prezident seçkiləri ərəfəsində siyasi mənzərədə görünən kəskin dəyişikliklər təkcə Fransada deyil, bütün Avropada klassik idarəçilik modellərinin çökməsindən xəbər verir.

Fransadakı kütləvi etirazlar bütün Avropa İttifaqı üçün ciddi xəbərdarlıqdır. Fransa ilə yanaşı, Avropanın digər aparıcı dövlətlərində baş verən etirazlar göstərir ki, ənənəvi idarəçilik modelləri, sosial proqramların ixtisarı və xalqın rəyinə məhəl qoymayan islahatlar artıq işləmir. Fransa cəmiyyətinin fərqli sosial təbəqələrinin küçələrdə nümayiş etdirdiyi həmrəylik vətəndaşların hökumətlərdən boş vədlər deyil, real həyat şəraitinin yaxşılaşdırılmasını tələb etdiyini aydın şəkildə göstərir.

Fransanı bürüyən etiraz dalğası sadəcə ötəri narazılıq aksiyası deyil, illərdir ölkədə davam edən uğursuz sosial və iqtisadi siyasətin dərin böhranıdır. Dövlətin öz vətəndaşlarının fundamental tələblərini ödəməkdə aciz qalması və xalqın səsini eşitmək əvəzinə, güc tətbiqinə üstünlük verməsi isə siyasi elitalar üçün ciddi siqnaldır. Əgər hökumət vətəndaşların yaşayış şəraitini yaxşılaşdıracaq, sosial ədaləti bərpa edəcək köklü addımlar atmazsa, Fransadakı qarşıdurmaların daha kəskin siyasi sarsıntılara gətirib çıxaracağı qaçılmazdır.

İsmayıl QOCAYEV,
"Azərbaycan"

Möhkəm milli-ideoloji təməl üzərində qurulan müstəqil Azərbaycan dövləti bu gün tarixinin ən qüdrətli və şanlı mərhələsini yaşayır. Müasir dövlətimizin qazandığı bütün uğurlar, o cümlədən ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması Ümummilli Lider Heydər Əliyev dühasının uzaqgörənliklə formalaşdırdığı ideoloji xəttin Prezident İlham Əliyev tərəfindən qətiyyətlə və ardıcıllıqla davam etdirilməsinin parlaq nəticəsidir. Azərbaycançılıq ideologiyası bu gün milli məntiqinə uyğun olaraq real tarixi nəticələr doğurub. Vətənimiz bütövləşib və xalqımız əbədi qürur zirvəsinə ucalıb.



Azərbaycançılıq həmrəyliyimizin və gücümüzün mənəvi sütunudur

Zəngin tarixi və elmi-fəlsəfi təməl

Azərbaycançılıq təsadüfi yaranmış bir məfkurə deyil. Bu ideologiya xalqımızın əsrlər boyu formalaşmış zəngin tarixi, elmi-fəlsəfi düşüncəsi və dövlətçilik ənənələri üzərində bərqərar olub. Azərbaycançılıq ideologiyasının mahiyyəti milli kimliyimizi, ana dilimizi, mədəniyyətimizi, adət-ənənələrimizi qorumaqla yanaşı, dövlət müstəqilliyini hər şeydən üstün tutmaqdan ibarətdir. Ən əsası o, birləşdirici, qurucu və gələcəyə hədəflənmiş ideoloji sistemdir.

Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə bu ideologiya dövlət səviyyəsində sistemləşdirildi. Bu vacib addım da göstərdi ki, müstəqil Azərbaycanın yaşaması və möhkəmlənməsi üçün vahid, hamını öz ətrafında birləşdirən ideoloji dayaq mütləqdir. Ulu Öndər uzaqgörənliklə sübut etdi ki, milli həmrəylik yalnız çağırışlarla deyil, elmi və siyasi konsepsiya ilə təmin olunmalıdır. Dahi şəxsiyyət azərbaycançılığı sadəcə bir nəzəriyyə kimi deyil, müstəqil dövlətçiliyimizin ana xətti kimi tətbiq etdi.

Azərbaycançılıq ideologiyasının ən böyük gücü onun fərqliliyə hörmət və bərabərliyi özündə ehtiva etməsindədir. Məhz bu yanaşmaya görə bu ideologiya ölkəmizdə əsrlər boyu yan-yana, bir ailə kimi yaşayan bütün azsaylı xalqları, etnik və dini azlıqları vahid çətir altında birləşdirib.

Oktyabrın 27-də Bakıda "Ortaq gələcək naminə dialoq" mövzusunda VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində Prezident İlham Əliyev çıxışında bu vacib məqama belə vurğu edib: "Əsrlər boyu Azərbaycan Asiya ilə Avropa arasında mədəniyyət körpüsü olub. Multikulturalizm ənənələri, dini və etnik dözümlülük xalqımızın əsrlər boyu yaşatdığı meyarlar olub və biz onları yüksək dəyərləndiririk. Azərbaycanın uğurlu və sabit inkişafının təməlində dayanan əsas səbəblərdən biri isə cəmiyyətimizdəki ahəngdarlıqdır. Bütün etnik qrupların, dinlərin nümayəndələrinin Konstitusiyamıza uyğun olaraq, nəinki bərabər hüquqları var, onlar, həmçinin bir ailə kimi yaşayırlar".

Ölkəmizin rəhbəri əlavə edib ki, hamımız milli ideyalar ətrafında birləşirik: "Onlardan biri azərbaycançılıqdır. O, Azərbaycandakı bütün xalqları bir araya gətirir. Bu birlik müstəqillik tariximizin ən ağır vaxtlarında özünü göstərib. Ermənistanın hərbi təcavüzü və işğalı, həmçinin İkinci Qarabağ müharibəsi zamanı bütün etnik və dini qrupların nümayəndələri özünəməxsusluğumuzu qorumaq, ədaləti müdafiə etmək və ərazi bütövlüyümüzü bərpa etmək üçün Qələbəmizin rəmzi olan "dəmir yumruq" kimi vuruşdular".

"...Hamımız birlikdə azərbaycançılığı yaşadacağıq, daimi edəcəyik, əbədi edəcəyik"

Ümummilli Lider Heydər Əliyev dünya azərbaycanlılarının harada yaşamasından asılı olmayaraq, milli mənafelərə xidmət etməli olduqlarını dəqiq müəyyənləşdirərək diaspor quruculuğunu dövlət siyasətinin mühüm istiqamətinə çevirdi. Xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşən dahi lider onları təşkilatlanmağa çağırırdı. Harada doğulmasından asılı olmayaraq, hər bir soydaşımızın azərbaycanlı kimliyini, ana dilini yaşatmasının vacibliyini vurğulayırdı.

2001-ci il noyabrın 9-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı bu prosesin tarixi kulminasiya və dönüş nöqtəsi oldu. Ulu Öndər tarixi qurultayda üzünü həmvətənlərimizə tutub deyirdi ki, müstəqil Azərbaycan dövləti gənc olduğu kimi, Azərbaycanın həmrəyliyi də, dünya azərbaycanlılarının birliyi də, müxtəlif ölkələrdəki Azərbaycan icmaları da gəncdirlər: "Ancaq indi biz yeni bir mərhələyə keçmişik. Biz formalaşırıq, müstəqilliyimiz möhkəmlənir, xarici ölkələrdə yaşayan azərbaycanlılar daha sürətlə təşkilatlanır və bizim hamımız birlikdə azərbaycançılığı yaşadacağıq, daimi edəcəyik, əbədi edəcəyik".

Ümummilli Lider xalqımızın, dövlətimizin parlaq zəfərlərlə bol xoş gələcəyinin həmrəyliyimiz, azərbaycançılıq ideyası ətrafında birləşməyimiz sayəsində mümkün olacağına qəti şəkildə əmin idi.

Əsasını Ulu Öndərin qoyduğu bu siyasi və ideoloji xətt Prezident İlham Əliyev tərəfindən yeni tarixi şəraitdə daha da zənginləşdirildi. Milli birliyimizin gücü 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ildə lokal xarakterli antiterror tədbirlərində özünün ən yüksək zirvəsinə çatdı.

Vətən müharibəsi zamanı ölkəmizdə yaşayan bütün etnik və dini qrupların nümayəndələri, eləcə də xaricdəki soydaşlarımız vahid amal uğrunda bir araya gəldilər.

Vətən müharibəsi dövründə diaspor təşkilatlarımızın dünyanın 30-dan çox ölkəsində keçirdikləri 200-dək aksiyada 25 mindən çox soydaşımız və dost xalqların nümayəndələri iştirak etdilər. Eyni zamanda müharibə günlərində 300-ə yaxın diaspor təşkilatı müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər göndərdilər.

Ölkə daxilində isə xalqımız Müzəffər Ali Baş Komandanın ətrafında "dəmir yumruq" kimi birləşdi. Bu möhtəşəm birliyin nəticəsində 2020-ci ildə cəmi 44 günə şanlı Şuşa Zəfəri qazanıldı, 2023-cü ildə cəmi 23 saatlıq antiterror tədbirləri ilə Xankəndidə bayrağımız əbədi dalğalandırıldı və suverenliyimiz tam təmin olundu.

2023-cü il dekabrın 21-də keçirilən tarixi Qarabağ və MOİK oyunundan əvvəl Xankəndi stadionunda çıxış edən Qalib Lider İlham Əliyev Azərbaycanın qalibiyyət formulunu bu cür açıqladı: "Qarabağ-ordu-xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir".

Bəli, azərbaycançılıq ideologiyası real tarixi nəticələr doğuran, torpaqlarımızı bütövləşdirən və xalqımızı qalib millətə çevirən qüdrətli güc mənbəyidir. Bu sarsılmaz birlik və ideoloji təməl var olduqca, müstəqil Azərbaycan dövləti daha da güclənəcək və gələcəyə doğru inamla addımlayacaq.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Demoqrafiya

İşğaldan azad edilmiş ərazilərin məskunlaşması həm də urbanizasiya probleminin həllinə dəstək olur



Dövlət Statistika Komitəsinin son məlumatlarında ölkəmizdə demoqrafik vəziyyətin necə olduğu da öz əksini tapıb. Burada əhalinin sayı, doğum, nikah və s. haqqında rəqəmlər göstərilib. Belə ki, cari ilin əvvəlindən ölkə əhalisinin sayı 17 min 445 nəfər və ya 0,2 faiz artaraq sentyabr ayının 1-i vəziyyətinə 10 milyon 279 min 796 nəfərə çatıb.

Maraq doğuran rəqəmlər sırasında Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən doğma yurda dönən insanların sayı yer alır. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına görə, işğaldan azad edilmiş ərazilərə 40 min 520 nəfər keçmiş məcburi köçkün geriyə qayıdıb. Bununla da həmin ərazilərdə yaşayan, fəaliyyət göstərən və təhsil alan şəxslərin ümumi sayı 96 min 68 nəfər təşkil edib.

Məlum olduğu kimi, Azərbaycanda əhalinin sayı əsasən təbii artım və qismən ölkəmizə daimi yaşamağa gələnlərin hesabına artır. Bu, yenə də belədir, baxmayaraq ki, təbii artımın səviyyəsi əvvəlki illərə nisbətən aşağı düşüb. Belə ki, cari ilin 8 ayı ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 56 min 404 doğulan körpə qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici əhalinin hər 1000 nəfərinə 9,3-dən 8,2-yə düşüb. Doğulan körpələrdən 1902-si əkiz, 69-u isə üçəm olub. Bu isə o deməkdir ki, 951 ailə eyni gündə 2 körpə ilə, 23 ailə isə 3 övladla sevinib.

Ölkə üzrə dünyaya göz açan körpələr arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,2 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 46,8 faiz olub. Bir daha vurğulayaq ki, dəfələrlə deyilən və cəmiyyəti çox narahat edən səbəb sarıdan doğulan oğlanların sayı təbii normadan artıqdır. Yəni təbii norma oğlanların 51, qızların isə 49 faiz olmasıdır. Təəssüf ki, hələ həyata gəlməyə macal tapmamış qız uşaqlarına cəllad əli uzadanların sayı azalmır.

Elə buradaca onu da qeyd edək ki, deyilənlər ölkədə qadınların sayının azalmasına səbəb olur. Hazırda əhalinin 49,8 faizini kişilər, 50,2 faizini qadınlar təşkil edir. Rəqəmlər göstərir ki, zərif cinsin sayı ötən illərə nisbətən azalıb.

Təəssüf ki, nikahların da sayı azalıb: cari ilin 8 ayında 26 min 485 nikaha daxilolma halı qeydə alınıb. Bu da 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayının 4,6-dan 3,9-a enməsi deməkdir. Boşanmaların nisbətən azalması isə təqdirəlayiq hal kimi qeyd olunmalıdır. Belə ki, cari ilin 8 ayında ölkədə 13 min 278 boşanma halı baş verib və onların sayı hər 1000 nəfərə hesabı ilə 2-dən 1,9-a düşüb.

Statistika Komitəsinin təqdim etdiyi rəqəmlər həmçinin göstərir ki, ölkə əhalisinin 54,3 faizi şəhərlərdə yaşayır, 45,7 faizi isə kənd sakinləridir. Əlbəttə, vaxtilə Qarabağdakı və Şərqi Zəngəzurdakı bölgələrimizdən düşmən əli ilə didərgin salınan soydaşlarımız öz doğma yurdlarına qayıtdıqca kənd sakinlərinin sayı artacaq və bu da ölkəmizdə urbanizasiya probleminin həllinə böyük dəstək olacaq.

Bu ilin 8 ayı ərzində ölkədə 40 min 191 ölüm halı qeydə alınıb. Keçən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici dəyişməyərək eyni səviyyədə (5,9) qalıb.

Qeyd etdiyimiz kimi, Azərbaycanda əhalinin sayı təbii artımla yanaşı, nisbətən miqrasiya vasitəsi ilə də artır. Miqrasiya saldomuz isə yenə də müsbətdir. Bunu cari ilin birinci yarısında ölkəmizə daimi yaşamaq üşün gələnlərin 2085, digər yerlərə həmişəlik gedənlərin sayının isə 1159 nəfər olduğu da təsdiqləyir. Yəni müsbət saldo 926 nəfər təşkil edir. Statistika Komitəsi bu barədə Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən verilən rəqəmlərə əsasən məlumat yayıb. Saldonun müsbət olduğunu əks etdirən rəqəmlər sıradan bir göstəricilər deyil. Bu, Azərbaycanı özünə daimi yaşayış yeri seçənlərin sayının getdikcə artdığı deməkdir. Bu da bir danılmaz həqiqətdir ki, insan hər zaman dolanışığının yaxşı olduğu, gününün xoş keçdiyi yerdə həmişəlik məskunlaşmağı qərara alır.

Xatırladaq ki, son illər ölkəmizdə bu tendensiya - miqrasiya saldosunun müsbət olması davamlı xarakter daşıyır.

Flora SADIQLI,
"Azərbaycan"

Qlobal temperatur artır

Birləşmiş Millətlər Təşkilatının (BMT) Ətraf Mühit Proqramının (UNEP) dəstəyi ilə hazırlanmış yeni hesabata əsasən, qlobal temperaturun 1,5 dərəcə həddinin aşması artıq qaçılmazdır. Alimlərin hesablamalarına görə, hazırkı iqlim siyasəti dəyişməz qalarsa, qlobal istiləşmə 2,8 dərəcəyə çata bilər. Paris İqlim Sazişi ilə müəyyənləşən öhdəliklərə əsasən, qlobal temperaturun 1,5 dərəcə həddinin aşılmaması nəzərdə tutulurdusa, artıq hədəf yenidən bu həddə qayıtmaq olacaq kimi görünür.



Bu baxımdan dövlətlərin üzərlərinə götürdükləri öhdəlikləri ciddi şəkildə həyata keçirməsi vacib faktorlardan biridir. Yoxsa, hesabatda da qeyd olunduğu kimi, 1,5 dərəcə həddinin aşılması ilə bağlı mümkün olan ən aşağı ssenari tezliklə əlçatmaz olacaq. Hazırkı vəziyyət göstərir ki, istixana qazı emissiyalarının müzakirə olunan səviyyədən daha aşağı salınması tələb olunur. Qaz emissiyalarının mövcud səviyyədə davam etdiyi hər beş il qlobal istiləşmənin pik həddini təxminən 0,1 dərəcə daha da artırır. Bu isə dünya ÜDM-ni daimi olaraq təxminən 1,2 faiz azaldır, təxminən 140 milyon daha çox insanı həyatı üçün təhlükəli, son dərəcə isti iqlim şəraitinə sürükləyir.

Qlobal temperatur artımının mümkün olan ən aşağı səviyyədə saxlanması üçün 2035-ci ilə qədər bərpaolunan enerji mənbələri hesabına elektrik enerjisi istehsalı gücünün üç dəfə artırılması, həmçinin qalıq yanacaqların istifadəsinin kəskin şəkildə azaldılması, o cümlədən 2040-cı ilə qədər kömürdən tam imtina edilməsi lazımdır. Bundan əlavə, karbonun kənarlaşdırılması texnologiyalarının əhəmiyyətli dərəcədə genişləndirilməsi də günün vacib tələbidir.

Davamlı Turizmin İnkişafına Dəstək İctimai Birliyinin sədri Nərminə Qəribova qəzetimizə açıqlamasında dedi ki, iqlim dəyişikliyi artıq gələcəyin deyil, bu günün problemidir. Temperaturun yüksəlməsi, buzlaqların əriməsi, quraqlıq, daşqınlar, meşə yanğınları, su ehtiyatlarının azalması və biomüxtəlifliyin itirilməsi indi dünyanın müxtəlif regionlarında özünü göstərir. BMT-nin iqlimlə bağlı son hesabatlarında səsləndirilən xəbərdarlıqlar da bir daha göstərir ki, qlobal istiləşmənin məhdudlaşdırılması üçün görülən tədbirlər kifayət etmir. Xüsusilə sənaye öncəsi dövrlə müqayisədə qlobal orta temperatur artımının 1,5 dərəcə həddində saxlanılması məqsədinin təhlükə altında olması beynəlxalq ictimaiyyət üçün ciddi xəbərdarlıqdır. "Bu hədəf 2015-ci ildə qəbul edilmiş Paris İqlim Sazişinin əsas istiqamətlərindən biridir. Sazişə qoşulan dövlətlər qlobal temperatur artımını 2 dərəcədən xeyli aşağı səviyyədə saxlamaq və onu 1,5 dərəcə ilə məhdudlaşdırmaq üçün səylər göstərmək öhdəliyi götürüblər. Bu hədd müəyyən müddətə aşılarsa belə, istiləşmənin daha yüksək səviyyələrə çatmasının qarşısını almaq mümkündür. Hər əlavə 0,1 dərəcə istiləşmə təbiətə, insan sağlamlığına, ərzaq və su təhlükəsizliyinə əlavə risklər yaradır. Deməli, mübarizəni davam etdirmək üçün hələ də kifayət qədər əsas var. Paris Sazişinin əsas məqsədi yalnız dövlətlərin iqlimlə bağlı bəyanatlar verməsi deyil, həmin bəyanatların konkret fəaliyyət proqramlarına çevrilməsidir", - deyə o əlavə etdi.

N.Qəribova bildirdi ki, bu gün əsas problemlərdən biri dövlətlərin götürdükləri öhdəliklərlə onların faktiki icrası arasında fərqin olmasıdır. Qlobal istiləşmənin məhdudlaşdırılması üçün dövlətlər kömür, neft və qazdan asılılığı mərhələli şəkildə azaltmalı, günəş və külək enerjisi kimi bərpaolunan enerji mənbələrinə keçidi sürətləndirməli, sənaye və nəqliyyat sektorunda karbon emissiyalarını azaltmalı, meşələrin qırılmasının qarşısını almalı və ekosistemləri bərpa etməli, metan emissiyalarına nəzarəti gücləndirməli, iqlim dəyişikliklərinə uyğunlaşma strategiyalarını həyata keçirməlidirlər. Bununla yanaşı, inkişaf etmiş dövlətlərin inkişaf etməkdə olan ölkələrə maliyyə və texnologiya dəstəyi göstərməsi də xüsusi əhəmiyyət daşıyır. Çünki iqlim dəyişikliyi sərhəd tanımır. Bir ölkədə yaranan ekoloji problem digər ölkələrin də iqtisadiyyatına, təbiətinə və əhalisinin həyat şəraitinə təsir göstərə bilər.

Azərbaycanın da qlobal iqlim dəyişikliklərinin mənfi təsirlərindən kənarda qalmadığını deyən ekspert qeyd etdi ki, ölkəmiz üçün əsas risklər sırasında su ehtiyatlarının azalması, quraqlıq, torpaqların deqradasiyası və şoranlaşması, temperaturun yüksəlməsi, Xəzər dənizinin səviyyəsinin dəyişməsi və biomüxtəlifliyə təhdidlər xüsusi yer tutur: "Bu baxımdan Azərbaycanın qarşısında mühüm vəzifələr dayanır. Azərbaycan günəş və külək enerjisi baxımından əhəmiyyətli potensiala malikdir. Bu imkanlardan istifadə etməklə, enerji istehsalında karbon emissiyalarının azaldılması istiqamətində daha geniş layihələr həyata keçirilməlidir. Meşələr yalnız ağac örtüyü deyil, bütöv ekoloji sistemdir. Onlar karbonun udulmasında, torpağın qorunmasında, su dövranının tənzimlənməsində və biomüxtəlifliyin saxlanılmasında mühüm rol oynayır. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə meşələrin bərpası, ekoparkların yaradılması və yerli ağac növlərinin qorunması uzunmüddətli ekoloji strategiyanın tərkib hissəsi olmalıdır. Ağacəkmə kampaniyaları yalnız əkilən ağacların sayı ilə deyil, onların neçə faizinin yaşadılması ilə qiymətləndirilməlidir. Kənd təsərrüfatında damcı suvarma sistemlərinin genişləndirilməsi, su itkilərinin azaldılması, çirkab suların təmizlənməsi və təkrar istifadəsi istiqamətində tədbirlər gücləndirilməlidir. Xəzər dənizində su səviyyəsinin dəyişməsi, sahil ekosistemlərinin zəifləməsi, çirklənmə və biomüxtəlifliyin azalması kompleks elmi araşdırmalar və regional əməkdaşlıq tələb edir. Ekoloji məsuliyyət yalnız dövlət qurumlarının və mütəxəssislərin vəzifəsi deyil, hər bir vətəndaş təbiətin qorunmasında iştirak etməlidir".

N.Qəribova vurğuladı ki, havanın çirklənməsi tənəffüs və ürək-damar xəstəliklərinin riskini artırır. İsti hava dalğaları xüsusilə yaşlı insanlar, uşaqlar və xroniki xəstəlikləri olan şəxslər üçün təhlükəlidir. Su və ərzaq təhlükəsizliyinin zəifləməsi isə ictimai sağlamlıq üçün əlavə problemlər yaradır. Ona görə də sağlam həyat tərzi, təmiz ətraf mühit, təbii resursların qorunması və ekoloji tarazlıq vahid yanaşma çərçivəsində nəzərdən keçirilməlidir. Sağlam yaşamaq üçün sağlam mühit də lazımdır.

Onun sözlərinə görə, bu gün bəşəriyyətin qarşısında duran əsas sual artıq qlobal istiləşmənin baş verib-verməməsi deyil: "Əsas məsələ onun hansı həddə qədər yüksələcəyini və gələcək nəsillərə necə bir planet miras qoyacağımızı müəyyən etməkdir. Dövlətlər beynəlxalq öhdəliklərini yerinə yetirməli, biznes sektoru ekoloji məsuliyyəti fəaliyyətinin ayrılmaz hissəsinə çevirməli, vətəndaş cəmiyyətləri isə ictimai nəzarət və maarifləndirmə funksiyasını gücləndirməlidirlər. Davamlı gələcək yalnız iqtisadi göstəricilərin yüksəlməsi ilə ölçülə bilməz. O, həm də təmiz hava, təhlükəsiz su, münbit torpaq, qorunan meşələr, sağlam insan və ekoloji tarazlıq deməkdir".

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 3 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin ƏSASNAMƏSİ

1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi (bundan sonra - Agentlik) dövlət ehtiyatlarının yaradılması və idarə olunması sahəsində (bundan sonra - müvafiq sahə) dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edən, bu sahədə tənzimləməni və nəzarəti həyata keçirən, habelə ölkənin strateji əhəmiyyətli mallarla təchizatının dayanıqlılığını təmin etmək və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq istiqamətində tədbirlər görən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Agentliyin hüquqi aktlarını rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Agentliyin saxlanma xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi, normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda büdcədənkənar vəsait və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Agentlik Bakı şəhərində yerləşir.

2. Agentliyin fəaliyyət istiqamətləri

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək;

2.1.2. müvafiq sahədə dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni həyata keçirmək;

2.1.3. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.4. strateji ehtiyatların və mülki müdafiə tədbirləri çərçivəsində fövqəladə ehtiyatların yaradılmasını və idarə edilməsini həyata keçirmək;

2.1.5. ölkənin strateji əhəmiyyətli mallarla təchizatının dayanıqlılığının təmin edilməsi və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısının alınması istiqamətində tədbirlər görmək;

2.1.6. strateji əhəmiyyətli malların (o cümlədən bazar iştirakçıları tərəfindən təmin edilən malların) monitorinqini aparmaq, habelə proqnozlaşdırmada iştirak etmək;

2.1.7. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək;

2.1.8. bu Əsasnamədə göstərilən və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

3. Agentliyin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

3.1.2. müvafiq sahədə dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanmasını və həyata keçirilməsini aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə təmin etmək;

3.1.3. müvafiq sahədə dövlət tənzimləməsi mexanizmlərinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.4. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, müvafiq sahədə korrupsiya risklərini azaltmaq məqsədilə korrupsiya risklərini və həmin risklərə uyğun olaraq hədəfləri müəyyən etmək, eləcə də həmin risklərin təhlili, qiymətləndirilməsi və qarşısının alınması üzrə tədbirlər görmək;

3.1.5. müvafiq sahə ilə bağlı dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirmək;

3.1.6. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.1.7. müvafiq sahədə dövlət nəzarətinin həyata keçirilməsini təmin etmək;

3.1.8. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə dövlət ehtiyatlarına tələbatı öyrənmək, strateji əhəmiyyətli malların siyahısı, dövlət ehtiyatlarının və bazar iştirakçıları tərəfindən təmin edilən malların nomenklaturaları ilə bağlı təkliflər vermək;

3.1.9. strateji ehtiyatları və saxlanılmasını həyata keçirdiyi fövqəladə ehtiyatları yaratmaq, habelə onların minimal həcmlərini təmin etmək, bu ehtiyatların idarə edilməsini, yeniləşdirilməsini və əvəzləşdirilməsini həyata keçirmək;

3.1.10. bazar iştirakçıları tərəfindən təmin edilən strateji əhəmiyyətli malların nomenklaturasındakı minimal həcmin azalma ehtimalı yarandıqda və ya həmin malların azalması müşahidə olunduqda, bu halların qarşısının alınması istiqamətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər vermək;

3.1.11. strateji əhəmiyyətli malların qiymətlərinin kəskin dəyişmələri risklərini müəyyən etmək məqsədilə daxili və xarici bazarları mütəmadi təhlil etmək və bununla bağlı təkliflər vermək;

3.1.12. dövlət ehtiyatlarına aid malların uçotunu aparmaq;

3.1.13. ölkənin strateji əhəmiyyətli mallarla təchizatının dayanıqlılığının təmin edilməsi və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısının alınması məqsədilə tədbirlər görmək;

3.1.14. fövqəladə hadisələr zamanı, habelə humanitar yardım məqsədilə dövlət ehtiyatlarından istifadə edilməsi ilə bağlı təkliflər vermək;

3.1.15. dövlət ehtiyatlarının saxlanılma yerlərinin ölkə ərazisi üzrə optimal bölüşdürülməsinin təmin edilməsi məqsədilə saxlanılma yerlərinin genişləndirilməsi və yenilərinin yaradılması ilə bağlı təkliflər vermək;

3.1.16. "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət ehtiyatlarına aid olan malların hərəkəti və mövcudluğu ilə bağlı illik hesabatı Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etmək;

3.1.17. müvafiq sahədə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.1.18. müvafiq sahədə dövlət əmlakından səmərəli istifadə olunmasına nəzarət etmək və dövlət maraqlarının qorunmasını təmin etmək;

3.1.19. müvafiq sahədə inzibati xəta və cinayət əlamətləri aşkar etdikdə, müvafiq olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun tədbirlər görmək;

3.1.20. müvafiq sahədə dövlət-özəl tərəfdaşlığının inkişafı üçün tədbirlər görmək;

3.1.21. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək, habelə elmi tədqiqatlar aparılmasını təşkil etmək;

3.1.22. müvafiq sahəyə ayrılan büdcə vəsaiti, fəaliyyət istiqamətləri üzrə əldə edilən büdcədənkənar vəsaitdən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.23. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.24. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin internet informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.25. müvafiq sahədə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.1.26. fəaliyyət sahəsində əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlər görmək;

3.1.27. Agentliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.28. Agentliyin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

3.1.29. Agentliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək, onların fəaliyyətinə, o cümlədən vəzifələrini yerinə yetirmək üçün ayrılan büdcə vəsaitindən və digər vəsaitdən təyinatı üzrə istifadə olunmasına nəzarəti həyata keçirmək;

3.1.30. Agentliyin strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən fəaliyyət istiqamətləri üzrə daxil olan təklifləri ümumiləşdirmək və tədbirlər görmək;

3.1.31. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.32. Agentliyin sistemində yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqi işini təşkil etmək;

3.1.33. müvafiq sahə üzrə statistik uçot aparılmasını təmin etmək;

3.1.34. Agentlikdə kargüzarlıq, rəqəmsal sənəd dövriyyəsi və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.35. Agentlikdə icra və əmək intizamına riayət olunması üçün tədbirlər görmək;

3.1.36. inzibati icraata dair fəaliyyətini "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş prosedur qaydaları daxilində və prinsiplər əsasında həyata keçirmək;

3.1.37. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Agentlik yanında İctimai Şura yaradılmasını təmin etmək;

3.1.38. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq səfərbərlik hazırlığı və səfərbərlik tədbirlərinin həyata keçirilməsində iştirak etmək;

3.1.39. bu Əsasnamədə göstərilən və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

4. Agentliyin hüquqları

4.1. Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrini yerinə yetirmək üçün Agentlik aşağıdakı hüquqlara malikdir:

4.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.2. müvafiq sahə üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;

4.1.3. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;

4.1.4. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair dövlət orqanlarına (qurumlarına) və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.5. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübəni öyrənmək, verilmiş səlahiyyətlər daxilində beynəlxalq əməkdaşlığı həyata keçirmək;

4.1.6. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər, tədqiqatlar, araşdırmalar, yoxlamalar və ümumiləşdirmələr aparmaq, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq;

4.1.7. normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada tabeliyində müvafiq qurumlar və ya strukturu daxilində bölmələr (şöbələr, sektorlar) yaratmaq, yenidən təşkil və ləğv etmək, həmçinin strukturuna daxil olmayan tabeliyindəki qurumların yaradılması, yenidən təşkil və ləğv edilməsi üçün təkliflər vermək;

4.1.8. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi və elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.9. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.1.10. istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;

4.1.11. səlahiyyətlərinə aid edilmiş məsələlərlə bağlı məhkəmələrdə müvafiq prosessual qanunvericilikdə nəzərdə tutulmuş hüquqları həyata keçirmək;

4.1.12. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla satınalmalar təşkil etmək;

4.1.13. bu Əsasnamədə göstərilən və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

5. Agentliyin fəaliyyətinin təşkili

5.1. Agentliyin Aparatı, onun strukturuna daxil olan qurumlar (regional bölmələr və s.) və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (büdcə təşkilatları, hüquqi şəxslər və s.) Agentliyin vahid sistemini təşkil edir. Agentlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Agentliyin işçilərinin ümumi say həddi və strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (büdcə təşkilatlarının, hüquqi şəxslərin və s.) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Agentliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən sədr rəhbərlik edir. Sədr Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Sədrin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. Sədrin müavinləri onlara sədrin həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Sədr:

5.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır, habelə Agentliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Agentliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və Elmi-Texniki Şurasının əsasnamələrini, strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələri (əsasnamələri) Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) nizamnamələrini (əsasnamələrini) təsdiq edir;

5.5.4. bu Əsasnamənin 5.11-ci bəndində Agentliyin Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

5.5.5. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Agentliyin strukturuna daxil olan qurumların əsasnamələrini və strukturuna daxil olmayan tabeliyindəki qurumların nizamnamələrini (əsasnamələrini) təsdiq üçün təqdim edir;

5.5.6. dövlət büdcəsindən ayrılmış vəsait və işçilərin müəyyən olunmuş say həddi daxilində Agentliyin Aparatının struktur bölmələrini və Agentliyin strukturuna daxil olan qurumların struktur bölmələrini (müvafiq strukturların Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edildiyi hallar istisna olmaqla) yaradır və ləğv edir;

5.5.7. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı tədbirlər görür, o cümlədən korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların idarəetmə qaydada verilməsi mexanizmini, həmçinin bu məlumatların qəbul edilməsi və araşdırılması, maraqlar toqquşması və korrupsiyanın qarşısının alınması məsələləri üzrə konfidensial məsləhət verilməsi və korrupsiya risklərinin idarə edilməsi üçün bir və ya bir neçə səlahiyyətli struktur bölməni (şəxsi) müəyyən edir;

5.5.8. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların strukturunu (bu Əsasnamənin 5.5.6-cı yarımbəndi nəzərə alınmaqla), ştat cədvəlini, ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində onların gəlir və xərclər smetasını təsdiq edir;

5.5.9. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin, habelə tabeliyindəki qurumların göstərdiyi xidmətlərdən (gördüyü işlərdən) əldə olunan gəlirlərin sərəncamçısı olaraq, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi və normativ hüquqi aktlarla müəyyən olunmuş tələblər nəzərə alınmaqla, Agentliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım, mükafat və qanunla müəyyən olunmuş digər ödənişlərin verilməsini təmin edir;

5.5.10. Agentliyin səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.11. Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər ilə, habelə beynəlxalq təşkilatlarla münasibətlərdə Agentliyi təmsil edir, verilmiş səlahiyyətlər daxilində danışıqlar aparır və müvafiq beynəlxalq sənədləri imzalayır;

5.5.12. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.5.13. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar və Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxslər istisna olmaqla, Agentliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.14. Agentliyin Aparatının və onun strukturuna daxil olan qurumların işçilərinə dövlət qulluğunun baş müşaviri və ondan aşağı olan ixtisas dərəcələri verir, müvafiq ixtisas dərəcələrinin verilməsi, həmçinin xüsusi fərqlənmiş işçilərə Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət təltifləri ilə təltif olunması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

5.5.15. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Agentlikdə qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.16. Agentliyin vəzifəli şəxslərinin normativ hüquqi aktlara zidd olan qərarlarını ləğv edir;

5.5.17. bu Əsasnamədə göstərilən və normativ hüquqi aktlara uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

5.6. Sədr öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

5.7. Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.8. Agentlikdə sədrdən (Kollegiyanın sədri), onun müavinlərindən və Agentliyin digər rəhbər işçilərindən ibarət Kollegiya yaradılır. Agentliyin Kollegiyasının tərkibinə mütəxəssislər və alimlər də daxil edilə bilərlər.

5.9. Agentliyin Kollegiyası üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

5.10. Agentliyin Kollegiyası öz iclaslarında Agentliyin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

5.11. Agentliyin Kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.11.1. Agentliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktlar;

5.11.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Agentliyə tapşırılmış konkret normativ hüquqi aktlar;

5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktlar;

5.11.4. aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmalı olan normativ hüquqi aktlar;

5.11.5. bu Əsasnamənin 5.11.1-5.11.4-cü yarımbəndlərinə uyğun olaraq Agentliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktlar.

5.12. Agentliyin Kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Agentliyin Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Agentliyin Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olduqda, Kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Agentliyin Kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda sədr bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verərək öz qərarını həyata keçirir. Agentliyin Kollegiyasının üzvləri şəxsi fikirlərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

5.14. Agentliyin Kollegiyasının iclaslarına digər dövlət orqanlarının (qurumlarının) və hüquqi şəxslərin, o cümlədən qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilərlər.

5.15. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Agentlikdə ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən Elmi-Texniki Şura yaradıla bilər.

5.16. Agentlikdə sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı Agentliyin, onun strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 1.9-cu bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla) verdikləri şikayətlərə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 3 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin STRUKTURU

1. Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin Aparatı (şöbələr və sektorlar).
2. Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin regional bölmələri.

ZƏFƏR gündəliyi

4 noyabr 2020-ci il

İlham ƏLİYEV:

"Biz Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik"

Düşmənin 2 "T-72" tankı, 3 "D-30" haubitsa topu, 1 zenit qurğusu məhv edilib



Noyabrın 4-də gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Döyüş əməliyyatları davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd "T-72" tankı, 3 ədəd "D-30" haubitsa topu, 1 ədəd "Zastava M-55" zenit qurğusu, 1 ədəd taktiki PUA-sı, 3 ədəd hərbi yük maşını məhv edilib və sıradan çıxarılıb.

Prezident İlham Əliyev xalqa müjdəli xəbər verib

Prezident İlham Əliyev xalqa müjdəli xəbər verib. Dövlət başçısı özünün "X" hesabında paylaşım edərək bildirib:

"Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Ağdam və Tərtər artilleriya atəşinə tutulub



Saat 10:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Ağdam rayonunun kəndlərini intensiv artilleriya atəşinə tutub. Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülüb.

Tərtər şəhəri və rayonun Şıxarx qəsəbəsi Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən artilleriya atəşin tutulub.

Düşmənin xüsusi hazırlanmış "M-55" zenit qurğusu məhv edilib

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin hərbi texnikalarının sıradan çıxarılması üzrə fəaliyyətlər davam etdirilib.

Cəbhənin Xocavənd istiqamətindəki yüksəkliklərdən birinə çıxarılmış Ermənistan silahlı qüvvələrinin 1 ədəd "M-55" zenit qurğusu dəqiq atəşlə məhv edilib.

1955-ci ildə istehsal edilmiş, yüngül zirehli çoxməqsədli transportyor üzərində quraşdırılmış 20 mm-lik 3 topdan ibarət zenit qurğusu aşağı hündürlükdə uçan hədəfləri və canlı qüvvəni məhv etmək üçün nəzərdə tutulub.

İlham Əliyev: "Biz öz torpağımızda döyüşürük"



Prezident İlham Əliyev İspaniyanın "EFE" informasiya agentliyinə müsahibə verib.

Cəbhədəki vəziyyəti dəyərləndirən dövlət başçısı deyib ki, Azərbaycan Ordusunun üstünlüyü davam edir: "Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən, biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən, demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik".

Atəşkəsin elan olunmasına və savaşın dayandırılmasına gəlincə isə Prezident deyib ki, Ermənistan elan edilmiş humanitar atəşkəs rejimini hər dəfə pozaraq dinc əhalini hədəfə alıb. Belə olan halda Azərbaycan üçün başqa yol qalmayıb: "Biz hərbi əməliyyatları davam etdirmək istəmirik və mən dəfələrlə demişəm və bu gün də təkrar edə bilərəm, əgər Ermənistanın baş naziri şəxsən özü, bu qan tökülməsinə görə məsuliyyət daşıyan şəxs belə bir bəyanat versə, biz dərhal dayanmağa hazırıq, dərhal. Mən sözünə əməl edən insanam və biz bunu edərik. Lakin o, bunu demir. O, vaxt qazanmaq istəyir, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir, Azərbaycana qarşı yeni hücumlar etmək və bizim azad etdiyimiz əraziləri geri almaq üçün bu atəşkəsdən istifadə etmək istəyir. Onun niyyəti bundan ibarətdir".

Prezident vurğulayb ki, məhz bu səbəbdən də Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyincə dayanmayacaq.

Zəngilanda düşmənin diversiya cəhdinin qarşısı qətiyyətlə alınıb

Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində bölmələrimizə qarşı düşmənin diversiya cəhdinin qarşısı qətiyyətlə alınıb.

Ciddi döyüş itkiləri verən düşmənin kəşfiyyat-diversiya qrupu geri çəkilməyə məcbur edilib.

"Azərbaycan"




Mədəniyyət



● Kino tariximiz

Qarabağın "Fəryad"ı

Müharibələr təkcə döyüş meydanlarında deyil, həm də tarix səhifələrində, incəsənət əsərlərində yaşayır - Azərbaycan xalqının XX əsrdə üzləşdiyi ən böyük faciələrdən və sınaqlardan biri olan Birinci Qarabağ müharibəsi, xüsusən də Xocalı soyqırımı kimi. Bu ağrını, millətin qan yaddaşını və eyni zamanda sarsılmaz ruhunu ekrana köçürən, zamanın sınağından keçərək şah əsərə çevrilən ekran işlərindən bəhs etdikdə isə ilk yada düşən 1993-cü ildə "Azərbaycanfilm" kinostudiyasında ərsəyə gəlmiş "Fəryad" bədii filmidir.



Bu film sadəcə bir kino deyil, o dövrün reallıqlarını bütün çılpaqlığı ilə əks etdirən, qan qoxulu səngərlərdən, dondurucu soyuqdan və insan iradəsinin yenilməzliyindən doğan bir fəryaddır. Filmin ssenari müəllifi Vaqif Mustafayev, quruluşçu rejissoru və baş rolun ifaçısı isə ömrünü bu sənətə fəda edən mərhum sənətkar Ceyhun Mirzəyevdir. "Fəryad" həm bir xalqın ekranlaşdırılmış faciəsi, həm də onun baş qəhrəmanını canlandıran rejissorun bu dünyaya vida etmədən öncə gedişinə vurduğu son və ən ağrılı möhürdür.

Real faktlar, bədii süjet

Ekran əsəri real hadisələr, konkret olaraq Birinci Qarabağ müharibəsi zamanı iki ay erməni əsirliyində qalmış Azərbaycan hərbçisi M. Hüseynovun xatirələri və şahidi olduğu dəhşətlər əsasında çəkilib. Filmdə batalyon komandiri İsmayılın timsalında Azərbaycan əsgərinin dözümü, vətən sevgisi və düşmən qarşısındakı mənəvi üstünlüyü nümayiş etdirilir.

Rejissor tapıntısı olaraq, buradakı İsmayıl obrazı vaxtilə hamının sevdiyi məşhur "Ögey ana" filmindəki balaca İsmayılın - Ceyhun Mirzəyevin uşaqlıqda canlandırdığı obrazın böyüklüyüdür. Müəllif sanki illər öncənin o sevimli uşağının böyüyüb vətəni qoruyan bir zabitə çevrildiyini və Qarabağda əsir düşdüyünü göstərərək iki film arasında sarsıdıcı bir mənəvi bağ yaradıb.

"Fəryad" filmini sadəcə bir müharibə xronikası olmaqdan çıxarıb onu dünya səviyyəli bədii dram nümunəsinə çevirən ən böyük güc - obrazların mükəmməl psixoloji işlənməsidir. Ssenari müəllifi Vaqif Mustafayev və rejissor Ceyhun Mirzəyev personajları ağ-qara müstəvisində, bəsit və şablon xarakterlər kimi təqdim etməyiblər. Buradakı hər bir obraz iki xalqın mentalitetini, ideologiyasını və müharibəyə baxışını simvolizə edir.

İsmayıl obrazı Azərbaycan kinosunda yaradılmış ən dürüst və ən qoçaq hərbçi obrazlarından biridir. O, ideallaşdırılmış bir qəhrəman deyil, qorxuları, ağrıları, ailə həsrəti olan real insandır. İsmayıl əsir düşdüyü andan etibarən fiziki cəhətdən məğlub duruma düşsə də, mənəvi cəhətdən hər kadrda düşmənindən qat-qat ucada dayanır. Onun gücü silahında deyil, mənəvi haqlılığında, ədalətindədir. İşgəncələr qarşısında İsmayılın susqunluğu və dik baxışları, düşmənin bəsit qəddarlığını daxildən parçalayan ən böyük silaha çevrilir. Ceyhun Mirzəyev bu rolda sözlərdən daha çox baxışları, üz cizgiləri və bədən dili ilə bütöv bir xalqın dözümünü ifadə etməyi bacarmışdır.

Şərin intellektual və qəddar siması, Xalq artisti Məlik Dadaşovun ifasındakı Armen obrazı Azərbaycan kinematoqrafiyasında düşmən obrazının təsvirində qeyri-adi bir inqilab idi. Qəddar, soyuqqanlı və amansız Armen Xaçaturyanı görkəmli aktyorumuz bənzərsiz bir ustalıqla və psixoloji dərinliklə canlandırıb. Məlik Dadaşov bu rola o qədər canlı və nifrət dolu bir ruh vermişdir ki, filmin çəkilişləri zamanı və nümayişindən sonra da tamaşaçılar tərəfindən bəzən real nifrətlə qarşılanırdı. Bu, aktyor məharətinin ən yüksək zirvəsi idi.

Rejissor filmdə düşməni savadsız, aciz və gülünc göstərmək kimi asan yola qaçmayıb. Əksinə, Armen oxumuş, musiqi savadı olan, manipulyasiya etməyi bacaran, lakin daxilən tamamilə eybəcərləşmiş, qəddar bir ideologiyanın qurbanı və icraçısıdır. Armen İsmayılı sadəcə fiziki məhv etmək istəmir, onun məqsədi Azərbaycan əsgərinin ruhunu sındırmaq, onu diz çökdürməkdir. O öz qəddarlığına qondarma "tarixi ədalət" donu geyindirməyə çalışır. Məlik Dadaşov bu rolu o qədər təbii və dərindən oynamışdır ki, onun personajına nifrət etməmək mümkünsüz idi. Bu obraz vasitəsilə film, erməni şovinizminin və faşizminin iç üzünü beynəlxalq auditoriyaya çatdıra bilən intellektual dillə ifşa etmək gücünə malikdir.

Filmdəki digər erməni əsgərlərinin kütləvi qəddarlığı, quduzlaşmış kütlə psixologiyası Xocalıda və Qarabağda törədilən vəhşiliklərin fərdi deyil, kollektiv bir nifrətin nəticəsi olduğunu bədii şəkildə sübut edir.

Murovdağın şaxtası, soyqırımı şahidləri və "Fəryad"ın ağrılarına dözməyən Ceyhun Mirzəyev

"Fəryad"ın çəkilişləri olduqca ağır, dözülməz şəraitdə aparılıb. Filmin operatoru Kənan Məmmədov xatirələrində yazır ki, müharibə dəhşətini yaşıl, çiçəkli təbiətdə çəkmək mümkünsüz idi. Bu səbəbdən çəkiliş qrupu qışın oğlan çağında Goranboy, Murovdağ və Naftalan ərazilərində, dondurucu şaxtada çalışıb. Hətta bəzi kadrların çəkilişində həqiqi döyüş bölgələrindən gələn barıt qoxusu və partlayış səsləri eşidilirdi.

Çəkilişləri 8 ay davam edən filmin bədii yükünü artıran ən mühüm məqamlardan biri odur ki, kütləvi səhnələrdə Xocalı soyqırımından cəmi bir neçə ay əvvəl sağ qurtulmuş



real qaçqınlar və zərərçəkmişlər iştirak edirlər. Onların gözlərindəki qorxu, kədər və axan göz yaşları aktyor oyunu deyil, yaşanan real faciənin hələ soyumamış izləri idi. Ceyhun Mirzəyev isə səhnələrin təbii alınması üçün əsirlikdə döyülmə kadrlarında dublyordan qətiyyətlə imtina edərək öz bədəninə həqiqi zərbələr vurulmasına icazə vermişdir.

Cavanşir Quliyevin bəstələdiyi, milli musiqi alətləri ilə simfonik ağırlığın sintezindən doğan və insanın ruhunu sarsıdan musiqilər isə bu vizual ağrını tamamlayan ən böyük qüvvəyə çevrilmişdi. Filmdə Xocalı soyqırımından qaçan qaçqınların, dondurucu şaxtada meşə ilə irəliləyən insanların təsvir olunduğu kütləvi səhnədə səslənən musiqi kinomuzun ən sarsıdıcı şah əsərlərindən biridir. Həmin kadrlarda söz yoxdur, yalnız ekranın dondurucu ağrısı və arxa fonda ucalan, insanın iliyinə işləyən xor sədaları var. Bu musiqi tamaşaçını sanki həmin qarlı meşəyə aparır və dərdi fərdi olmaqdan çıxarıb ümummilli bir mətəmə çevirir. İsmayıl əsirlikdə fiziki və mənəvi işgəncələrə məruz qaldıqca, onun baxışlarındakı səssiz müqaviməti müşayiət edən minor tonlu musiqi mövzusu qəhrəmanın daxili azadlığını simvolizə edir. Düşmən onu zəncirləsə də, musiqi onun ruhunun hələ də azad və vətəndə olduğunu pıçıldayır. Bütün bunlar baxımından "Fəryad" filmi sadəcə Azərbaycan kino tarixinə daxil olan bir sənət əsəri deyil, həm də xalqımızın keçdiyi ağrılı-acılı müharibə yollarını, milli kimliyini və azadlıq mübarizəsini gələcək nəsillərə ötürən ən böyük kino sənədidir.

Bu möhtəşəm film Ceyhun Mirzəyevin kino sənətində son işi oldu. O, belə bir filmin ərsəyə gəlməsi üçün canını, sağlamlığını, varlığını qoymuşdu. Müharibənin gətirdiyi mənəvi sıxıntılar, çəkiliş meydançasındakı fiziki gərginlik və millətin dərdi aktyorun səhhətində silinməz izlər buraxdı. Hər kadrda ürəyinin bir parçasını qoyan böyük sənətkar təəssüf ki, filmin çəkilişləri və montajı tam yekunlaşdıqdan sonra onun böyük ekranlardakı premyerasını görə bilmədi. 5 mart 1993-cü ildə cəmi 46 yaşında ikən Ceyhun Mirzəyev qəfil ürək tutmasından dünyasını dəyişdi. Onun ürəyi Qarabağ dərdinə və ekranlaşdırdığı faciənin ağırlığına dözmədi. Ölümündən sonra rejissor bu ekran əsərinə görə respublikanın "Humay" mükafatına layiq görüldü.

30 illik "Fəryad"a son qoyan 44 günlük Zəfər

1993-cü ildə çəkilən "Fəryad" filmi ilə 2020-ci ilin 44 günlük Vətən müharibəsi və tarixi Qələbəmiz arasında Azərbaycan xalqının 30 illik ağrısını, ümidini və nəhayət, böyük zəfərini tamamlayan sarsılmaz bir mənəvi körpü var. Müharibənin ilk illərində yaşanan faciələri və məğlubiyyət acısını ekranlaşdıran bu əsər, 44 günlük müharibədən sonra tamamilə yeni bir fəlsəfi və bədii məna kəsb etdi.

1993-cü ilin "Fəryad"ı Azərbaycan xalqının Qarabağ mövzusundakı ən böyük mənəvi yarası, Xocalının ağrısı və İsmayıl obrazının timsalında çəkilən əsirliyin rəmzi idi. 30 il boyunca bu filmə baxan hər bir azərbaycanlı İsmayılın işgəncələr qarşısındakı baxışlarında həm kədər, həm də daxili bir intiqam və geri qayıtmaq ümidi axtarırdı.

44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə isə ekrandakı o dondurucu ağrıya son qoydu. Azərbaycan Ordusu cəbhədə qazandığı tarixi zəfərlə sanki həm şəhidlərimizin, həm də kinomuzda canını vətən yolunda fəda edib əsir düşən İsmayılın intiqamını aldı. Filmdə Armen Xaçaturyanın (Məlik Dadaşov) İsmayıla xitabən dediyi "Bura sizin deyil" iddiaları 44 günlük müharibədə "Qarabağ Azərbaycandır!" nidası ilə tarixin arxivinə atıldı.

İradə ƏLİYEVA,
"Azərbaycan"

● Milli-mədəni irsimiz

Mahnılara köçən ömür

Sənətkar ömrü yaddaşlarda qoyub getdiyi iz qədərdir. Müğənni Hüseynağa Hadıyev kimi. Onun həyat yolu uzun sürməsə də, izi - oxuduğu, lent yazılarına köçürülmüş mahnılar onu bu gün də xatırladır, sevdirir. O, səsi ilə dinləyicinin qəlbinə yol tapır, duyğularını pərvazlandırırdı. Onun ifasında sevgi də vardı, nisgil də, həsrət də, kövrəklik də... Sanki hər mahnı ürəyindən süzülürdü.



Hüseynağa Hadıyev 1946-cı il noyabrın 19-da Bakıda, musiqiyə, ədəbiyyata hörmət, sevgi dolu bir ailədə dünyaya gəlib. Uşaqlıq illəri paytaxtın özünəməxsus ovqatı, küçələri, sakinləri olan "Sovetski" məhəlləsində keçib. Bu məhəllə onun uşaqlıq dünyası, ilk xatirələrinin, ilk musiqi duyğularının ünvanı idi. Anası Törə xanım görkəmli yazıçı, dramaturq Cəfər Cabbarlının qohumu idi. Amma Hüseynağa körpə ikən onu itirib, qayğısını bacısı çəkib.

Musiqiyə marağı uşaqlıqdan başlayıb. Hələ orta məktəbdə oxuduğu illərdə onun özünəməxsus, məlahətli səsi olduğunu bilirlər. Hüseynağa məktəbə gedib-gələrkən yolboyu mahnılar zümzümə edib, məhəllədəki yaşıdlarını başına toplayaraq onlar üçün oxuyub. Atasının aldığı qarmon onun ilk musiqi aləti olub. Hüseynağa bu alətdə çalmağı həvəslə öyrənib. Sonralar "Pionerlər evi"ndə qarmon dərnəyinə gedib, musiqi biliklərini və ifa bacarığını inkişaf etdirib.

Hüseynağa Hadıyev məktəb tədbirlərində də çıxış edib. Musiqiyə bağlılığı, oxumaq həvəsi və istedadı ətrafındakıların diqqətini çəkib. Hüseynağanın sənətə marağı zaman keçdikcə daha da güclənib.

Musiqi sahəsində ali təhsil almadan ifaçılığa başlayıb. Sonralar Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) təhsil alıb. İnstitutu bitirdikdən sonra bir müddət həmin təhsil ocağında fəaliyyət göstərib. Ancaq onun əsas sənət yolu müğənniliklə bağlı olub.

Hüseynağa Hadıyevin həyatında mühüm dəyişiklik 1970-ci illərin əvvəllərində baş verib. Əməkdar incəsənət xadimi Gülarə Əliyevanın dəvəti ilə "Dan ulduzu" instrumental ansamblında solist kimi fəaliyyətə başlayıb. "Dan ulduzu" bir çox musiqiçi, müğənni kimi Hüseynağanın da həyatının parlaq işığı olub. Ansamblın kollektivi onun ifaçılıq imkanlarının genişlənməsində, tanınmasında və sənətkar kimi formalaşmasında mühüm rol oynayıb. Hüseynağa Hadıyev ömrünün sonunadək "Dan ulduzu" instrumental ansamblının solisti olub.

Hüseynağa Hadıyev qısa müddətdə dinləyicilərin sevimli müğənnilərindən biri kimi tanınıb. Onun ifasında səslənən "Mənim dünyam", "Gecələr bulaq başı", "Nərgizim", "Bir xumar baxışla", "Bu gecə", "Gəl barışaq", "Unuda bilmirəm", "Xalidə", "Arzular", "Ay köçəri quşlar", "Al məndən gülüşlərini", "Ürək", "Gözəl", "Çiçəklər açmasa", "Nə gözəldir, Azərbaycan", "Cəmilə" və başqa mahnılar dillər əzbəri olub.

Hüseynağa Hadıyev sevmədiyi mahnını heç zaman ifa etməzdi. O, ifa etdiyi əsəri əvvəlcə özü bəyənməli, onun musiqisini və məzmununu qəbul etməli idi. Ona görə də müğənni səsindəki, ifa tərzindəki səmimiliklə, təbiiliklə könüllərə yol tapırdı. Oxuduğu hər mahnıya elə bağlanır, aludə olurdu ki, sanki bütün dünyanı unudurdu.

"Dan ulduzu" ansamblı ilə müxtəlif xarici ölkələrdə qastrol səfərlərində olan müğənni Azərbaycan musiqisini beynəlxalq səhnələrdə təmsil edib. Əlcəzair, Bolqarıstan, Hindistan, İsveç və başqa ölkələrdə keçirilən konsertlərdəki ifaları dinləyicilər tərəfindən də maraqla qarşılanıb.

Hüseynağa Hadıyev təkcə səsi ilə deyil, səhnə görünüşü ilə də fərqlənirdi. Onun özünəməxsus geyim tərzi və saç düzümü var idi. Amma sərt qadağaları ilə tarixdə qalan keçmiş sovet hakimiyyəti illərində televiziya verilişlərinə, konsertlərə və rəsmi tədbirlərə çıxmaq üçün ciddi geyinmək tələb edilirdi. Odur ki, Hüseynağa Hadıyevin bu seçimləri televiziya rəhbərliyi ilə fikir ayrılığına səbəb olurdu. Ondan efirə kostyumda çıxması tələb edilsə də, müğənni heç vaxt bu tələblərlə razılaşmazdı. Səhnədə öz üslubunu qorumağa çalışırdı.

Hüseynağa Hadıyevin həyatında tamaşaçıların bilmədiyi bir məqam da olub. Deyilənlərə görə, o, uşaqlıq illərindən vərəm xəstəliyindən əziyyət çəkib. Ancaq müğənni bu barədə uzun müddət heç kimə danışmayıb. Sənət dostları onun xəstəliyinin ağırlığını yalnız ömrünün son günlərində xəstəxanada həkimlərdən öyrəniblər. Ancaq gec idi. 1992-ci ilin yanvarında müğənninin səhhəti daha da pisləşib və o, yanvarın 12-də xəstəxanada dünyasını dəyişib.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

● Musiqi dünyası

"Niyyətin hara, mənzilin ora"

Qədim musiqi alətlərimizi el sənətkarları yaşadır

İllər, əsrlər ötüb keçsə də, xalq yaratdığı sənət nümunələrini, musiqi alətlərini, mahnıları, bir sözlə, mədəni irsini göz bəbəyi kimi qoruyub saxlayaraq gələcək nəsillərə çatdırır. Çatdırır ki, gələcək nəsillər keçmişdən xəbərdar olsun, el sənətini daim yaşatsınlar.

Xalqın yaratdığı başqa sənət nümunələri kimi, musiqi alətləri də zamanları arxada qoyaraq yaşayır. Nə qədər müasir musiqi alətləri yaransa da, qədim alətlərə sevgi heç vaxt tükənmir. Çünki bu musiqi alətləri səsində, avazında ulu keçmişimizi, babalarımızın ruhunu yaşadır. Onlarda ifa olunan musiqiləri dinlədikcə sanki bir anlıq ötən illərə dönürük. Bu alətlərdən qopan səslər könlümüzü oxşayır, bulaq suyu kimi şırıl-şırıl ürəyimizə axır, qəlbimizə hopur.

Ulu keçmişimizdən soraq verən zurna, balaban və başqa alətlərdə milli musiqimizi ifa edən, yaşadan sənətkarlardan biri də Balaxanı sakini Mirağa Murtuzayevdir. Mirağa kiçik yaşlarından musiqinin sehrinə düşərək bu alətlərdə ifa etməyi öyrənib. Sənət yollarında qarşılaşdığı çətinliklər onu qorxutmayıb. Bu gün el şənliklərində iştirak edən Mirağa Murtuzayev xalq mahnılarımızı zurna və balabanda məharətlə ifa edir.

Mirağa Murtuzayev 1964-cü ilin avqustunda anadan olub. Kiçik yaşlarından musiqiyə maraq göstərib, onun vurğunu olub. Həmin günləri xatırlayan Mirağa deyir ki, 10 yaşımda televizorda musiqi verilişini izləyirdim: "Həmin verilişdə qədim el havalarından bəhs olunurdu. Qavaldan çıxan ritmləri sanki ürəyimdə əks-səda verirdi. Mən də bu alətdə ifa etmək istəyirdim. Amma evimizdə qaval yox idi. Bir müddətdən sonra Montinə köçdük. Onda 3-cü sinifdə oxuyurdum. Şəhərə köçəndən bir müddət sonra valideynlərim mənə qaval aldılar. Artıq 13 yaşım var idi. Günlərin birində məktəbimizdə ən yaxşı qaval ifaçısını müəyyənləşdirmək üçün musiqi müsabiqəsi keçirildi. Müsabiqədə iştirak etdim. Gözləmədiyim halda 1-ci yerə çıxdım. İfam musiqi müəlliminin xoşuna gəldi. Məni təbrik edib dedi ki, səni televiziya verilişinə aparacağam. O vaxtlar Ç.İldırım adına İdman Kompleksində "Şən starlar" verilişi çəkilirdi. Verilişdə qarmon ifaçısı ilə gənc müğənnini müşayiət etdik. Çəkilişdən qayıdandan sonra qavalım yararsız vəziyyətə düşdü. Nə qədər valideynlərimə



desəm də, kasıbçılıq ucbatından onlar təzə qaval ala bilmədilər".

Sonra o, sözünə davam etdi: "Evdə böyük qardaşımın balabanı var idi. Amma qəmişi olmadığından onda mahnı ifa eləmək mümkün deyildi. Bir gün yol keçəndə qamışlıq gördüm. Tez bir neçə qamış qırıb evə gətirdim, səliqə ilə ora-burasını yondum. Bir az əziyyət çəkəndən sonra balaban üçün qəmiş düzəldə bildim. Sonra onu balabandakı yerinə taxıb nəfəs verəndə gördüm ki, səsi pis çıxmır. Amma mahnı ifa edə bilmirdim. Buna baxmayaraq, məktəbə gələndə balabanı götürdüm. Musiqi müəllimimiz məni görəndə soruşdu "Mirağa, haradasan, niyə gəlib məşq eləmirsən, hanı qavalın?" Dedim ki, qavalım cırılıb, ala bilmirəm, indi balabanım var. Bu gündən sonra balaban çalacağam.

Məktəbdən çıxanda İlham adlı qonşumuzu gördüm. Onlarla bir binada yaşayırdıq. Dedim: "İlham, eşitmişəm atan Əlimuxtar əmi balaban ustasıdır. Tanınmış sənətkarlar Avtandil İsrafilov, Vəli Qədimovla toya gedir. Görəsən, mənə balaban ifa etməyi öyrədərmi? Dedi ki, niyə öyrətmir, nə vaxt həyətdə görsən, yaxınlaş, fikrini de. Elə ertəsi gün dərsdən qayıdanda İlhamın atasını həyətdə gördüm. Yaxınlaşıb salam verəndən sonra dedim ki, Əlimuxtar əmi, olarmı axşam sizə gəlim. Rəhmətlik kişi məni tanıyırdı, dedi ki, qapımız sənin üzünə açıqdır, nə vaxt istəyirsən gəl. Axşam düşər-düşməz sevinə-sevinə evlərinə getdim. Əlimuxtar əmi nə üçün gəldiyimi soruşdu. "Sizdən balaban çalmağın sirlərini öyrənmək istəyirəm", - dedim. Balabana baxanda gördü ki, düzəltdiyim qəmiş yaxşı deyil. Dedi ki, gəl sənə yaxşısını verim. Bir dəfə evlərinə gedəndə Əlimuxtar əmi balabana təzə qamış taxıb bəzi üsulları mənə öyrətdi. Dedi ki, əgər yaxşı sənətkar olmaq istəyirsənsə, özünə təzə balaban al. Bu alətin təzəsi 40 manat idı. Çətin də olsa, valideynlərin mənə təzə balaban aldılar.

Qardaşımgildə qrammafon var idi. Valları qrammafona qoyub məşhur klarnet ifaçıları Əşrəf Əşrəfzadənin, Şəmsi İmanovun mahnılarına qulaq asırdım. Onların ifalarına balabanda dəm verirdim. Beləcə, yavaş-yavaş balabanda həm dəm tutmağı, həm də mahnıları ifa etməyi öyrəndim. Çox keçmədi ki, "Sarı gəlin"i və başqa mahnıları ifa etdim.

Mirağa Murtuzayev ilk dəfə el şənliyinə getdiyini xatırladı: "Günlərin birində ansamblımızın qarmon ifaçısı Rafiq bizə gəldi. Atamdan icazə aldı ki, məni toya aparsın. Beləcə, 13 yaşımda toyda balabanda dəm tutmağa getdim. Heç bir çətinlik də çəkmədim. Evə 80 manatla qayıtdım. Anam puldan 25 manatını mənə qaytarıb verdi ki, get, özünə papaq al. Bu, mənim evə gətirdiyim ilk qazanc idi.

1980-ci il idi. Gəlinimiz dedi ki, sən balabanda, zurnada yaxşı ifa etsən də, mütləq musiqi təhsili almalısan, onda daha yaxşı bacaracaqsan. Səid Rüstəmov adına 13 nömrəli musiqi məktəbində oxumağa başladım. Bu məktəb mənim üçün musiqi dünyasına açılan qapı oldu. Sonra Asəf Zeynallı adına Musiqi Kollecinə qəbul olmaq istəsəm də, uğurlu alınmadı. Bir müddət balabandan çox zurnada ifa etməyə başladım. 1982-ci ildə balaban müəllimim Babaxan Əmirov bir gün mənə dedi ki, Naxçıvanda festival keçirilir, səni orada iştirak etməyə göndəririk. İnanırıq ki, bizi həmin festivalda layiqincə təmsil edəcəksən. Festivala 3 əsərlə getdim. "Sənindir", "Sevgili canan" və "Xəyala dalarkən". Bir də variyasiya ilə. Hamısı da notla. Festivalın münsiflər heyətinin rəhbəri tanınmış bəstəkar Cahangir Cahangirov idi. O bizi sonadək diqqətlə dinlədi. Mənə 2-ci dərəcəli laureat diplomu və 450 manat pul mükafatı verdilər".

Qədim el havalarını qədim musiqi alətlərində ifa edən Mirağa Mustafayev bu gün də fəaliyyətini davam etdirir. Dediyinə görə, son vaxtlar balaban ifasına daha çox üstünlük verir, amma qara zurnanı da unutmur.

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"

Azərbaycan və Türkmənistan həmkarlar ittifaqları arasında əməkdaşlığın perspektivləri müzakirə olunub





Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndə heyəti Türkmənistanda səfərdədir. Səfər çərçivəsində Türkmənistan Milli Həmkarlar İttifaqları Mərkəzində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndə heyəti ilə görüş keçirilib.

Görüşdə Azərbaycan və Türkmənistan arasında tarixən formalaşmış dostluq münasibətləri və dövlət başçılarının siyasi iradəsi sayəsində inkişaf edən əlaqələrin əhəmiyyəti vurğulanıb.

Türkmənistan Milli Həmkarlar İttifaqları Mərkəzinin sədri Oğulcennət Berdiliyeva ölkəsində əmək hüquqlarının qorunması, işçilərin sosial müdafiəsinin gücləndirilməsi və həmkarlar ittifaqı üzvlərinə dəstək mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə məlumat verib. Mərkəzin sədri rəhbərlik etdiyi təşkilatın Azərbaycan həmkarlar ittifaqları ilə əlaqələrin genişləndirilməsində və qarşılıqlı təcrübə mübadiləsində maraqlı olduğunu qeyd edib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov ölkəmizdə həmkarlar ittifaqlarının fəaliyyəti, əmək hüquqlarının müdafiəsi, rəqəmsallaşma prosesi və innovativ təşəbbüslər, eləcə də üzvlərə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi və əlçatanlığının artırılması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb.

Konfederasiya sədri çıxışında reallaşdırılan sosial layihələr, üzvlərə göstərilən hüquqi yardım, həmçinin yollayış sisteminin rəqəmsal transformasiyası və sanatoriya-kurort xidmətlərinin modernləşdirilməsi sahəsindəki yenilikləri diqqətə çatdırıb.

Tərəflər 2026-cı ilin mayında Bakıda imzalanmış Əməkdaşlıq Memorandumundan irəli gələn vəzifələrin icra vəziyyəti, əlaqələrin genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi, təcrübə mübadiləsi, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparıblar.

Azərbaycan nümayəndə heyəti həmçinin Türkmənistan Milli Həmkarlar İttifaqları Mərkəzinin fəaliyyəti ilə tanış olub.

Nərminə ƏSGƏROVA,
"Azərbaycan"

Separatçı əməllərin təşkilinə görə beynəlxalq axtarışda olan şəxs həbs edilib

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən davam etdirilən əməliyyat-axtarış tədbirləri ilə 2025-ci ildən beynəlxalq axtarışa verilmiş Fetiyev Murad Qərib oğlunun Azərbaycana gətirilərək istintaqa cəlb edilməsi təmin olunub.

Bu barədə AZƏRTAC-a DTX-nin Mətbuat xidmətindən məlumat verilib.

Müəyyən edilib ki, Murad Fetiyev xarici ölkədən idarə olunan radikal mərkəzlərin tapşırığı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanması, milli nifrət və düşmənçiliyin salınması məqsədilə sosial şəbəkələrdə müxtəlif qruplar yaradaraq xaricdə, eləcə də Azərbaycanda yaşayan azsaylı etnik qrupun ekstremist ideyalar daşıyan nümayəndələrini həmin qruplara cəlb edib.



Eyni zamanda onların arasından radikal baxışları ilə xüsusilə fərqlənən şəxslərin seçilməsini, ölkə ərazisində mühüm strateji obyektlər barədə informasiya toplanılmasını, terrorçuluğa açıq çağırışlar edilməsini təşkil edib.

Bir müddət əvvəl həmin cinayətkar qruplaşmanın bəzi üzvləri Azərbaycan Respublikasının müdafiə qabiliyyətini və iqtisadi təhlükəsizliyini zəiflətmək məqsədilə dövlət müəssisəsinə basqın etməyə, insanların girov götürülməsinə hazırlıq hərəkətləri etdiklərinə görə cinayət məsuliyyətinə cəlb edilərək həbs olunublar.

Murad Fetiyevin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-2 (Terrorçuluğa açıq çağırışlar), 283-1-ci (Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) və digər maddələri ilə ittiham olunmasına dair cinayət işi üzrə məhkəmə baxışı başlayıb.

Kukla Teatrı "Balaca səyyah"la uşaqları sevindirəcək





Noyabrın 16-da Azərbaycan Dövlət Kukla Teatrında məktəblilərin payız tətili günlərində "Balaca səyyah" tamaşasının premyerası keçiriləcək.

Teatrın Mətbuat xidmətindən aldığımız məlumata görə, tamaşa belarus dramaturqu, rejissoru və aktyoru Dmitri Boqoslavskinin "Mən necə səyyah oldum" əsəri əsasında hazırlanıb. Tamaşa uşaqların böyük arzulara gedən yolunun yalnız xəyal və cəsarətdən deyil, həm də bilik və hazırlıqdan keçdiyini nümayiş etdirir.

"Balaca səyyah"ın baş qəhrəmanı dünyanı kəşf etmək, yeni ölkələr görmək, üfüqləri aşmaq arzusunda olan balaca bir oğlandır. O, ilk səyahətinə çıxaraq dəniz canlıları və digər maraqlı obrazlarla qarşılaşır, müxtəlif macəralar yaşayır və hər qarşılaşmada yeni bir həqiqəti kəşf edir.

Səhnə işinin əsas ideyası uşaqlara öyrənməyin, məktəb biliklərinin və dünyagörüşünün gələcək arzulara çatmaqda mühüm rol oynadığını aşılamaqdır. Qəhrəman səyahət zamanı anlayır ki, coğrafiya ilə yanaşı, riyaziyyat, xarici dil və digər fənlər də onun üçün vacibdir. Beləliklə, macəra yolu ilə o, arzularına çatmaq üçün ilk növbədə öz üzərində çalışmalı olduğunu dərk edir.

Yumor, fantaziya, interaktiv dialoqlar və rəngarəng kukla obrazları ilə zəngin olan tamaşa balaca tamaşaçıları həm əyləncəli macəraya, həm də bilik dünyasına dəvət edir.

Kukla Teatrının Mətbuat xidmətindən bildirilib ki, "Balaca səyyah"ın səhnələşdirmə və quruluş müəllifi Anar Məmmədov, quruluşçu rəssamı İqbal Əliyev, bəstəkarı Əməkdar artist Vüqar Camalzadədir.

Birhissəli uşaq tamaşasında obrazları teatrın aktyorları - Əməkdar artist Cəmilə Allahverdiyeva, aktyorlar Rəhim Rəhimov, Səriyyə Mansurova, Bayram Ağamalıyev, Araz Həsənli, Könül Nəsibli, Səbinə Məmmədova, Ramiz Qəmbərov, Samirə Nəcəfova, Yusif Baxşəliyev, Firuzə Nəsibli və Yasin Abbasov canlandırırlar.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

BEYNƏLXALQ HƏYAT

Çin valyuta ehtiyatı tələblərini artırır

Çin Xalq Bankı yuanın uzunmüddətli və kəskin dəyər qazanmasını azaltmaq məqsədilə maliyyə institutları üçün xarici valyuta ehtiyat normasını artırmaq qərarına gəlib. Bu, bankın son dövrlər yerli valyutanın güclənməsinə qarşı atdığı mühüm addımlardan biridir.



"Reuters" agentliyinin məlumatına görə, noyabrın 15-dən etibarən Çində xarici valyuta üzrə məcburi ehtiyat norması 4 faizdən 6 faizə qaldırılır. Bu addım maliyyə sistemindən təxminən 24 milyard dollar həcmində nağd xarici valyuta vəsaitinin çəkilməsi deməkdir.

Qərardan dərhal sonra yuan dollara nisbətdə 0,37 faizədək ucuzlaşaraq son 6 ayın ən böyük günlük azalmasını yaşayıb. Mərkəzi Bank bu addımı güclü ixrac və böyük ticarət mənfəəti səbəbindən ilin əvvəlindən bəri dollara qarşı 5 faiz çox bahalaşan yuanın sürətli artımını səngitmək, həmçinin bazardakı birtərəfli gözləntilərin və həddindən artıq valyuta təklifinin qarşısını almaq üçün atıb.

ABŞ Rusiya və Ukrayna arasında danışıqlarda vasitəçilik edəcək

ABŞ noyabrın 10-11-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabidə Rusiya və Ukrayna arasında işçi səviyyəsində keçiriləcək danışıqlarda vasitəçilik edəcək.



"Politico"nun məlumatına görə, bu barədə ABŞ Prezidenti Donald Trampın xüsusi nümayəndəsi Stiv Vitkoff məlumat verib. O bildirib ki, danışıqlar müharibədən sonrakı təhlükəsizlik tənzimləmələri, gərginliyin azaldılması, humanitar yardım və sülhə doğru atılacaq növbəti addımlara yönələcək.

S.Vitkoff həmçinin qeyd edib ki, amerikalı diplomatlar bu həftə Brüsseldə Fransa, Almaniya, Böyük Britaniya, Avropa İttifaqı və NATO nümayəndələri ilə görüşərək Ukraynaya təhlükəsizlik zəmanətləri, Avropanın müharibədən sonrakı təhlükəsizlik strukturu və Ukraynanın bərpasını dəstəkləyəcək iqtisadi imkanları müzakirə edəcəklər.

Neft yenidən bahalaşıb

Yaxın Şərqdəki gərginliklə bağlı neft qiymətləri yenidən yüksəlib. "Reuters" agentliyinin məlumatına görə, bu artım ABŞ qüvvələrinin Yaxın Şərqdəki hədəflərə zərbə endirməsi ilə əlaqədar baş verib.



Bu addım bölgədə enerji təchizatının uzunmüddətli pozulması və münaqişənin daha da gərginləşməsi ilə bağlı narahatlıqları artırıb.

Bundan əvvəl tərəflər arasında sülh danışıqlarının aparılması səbəbindən neftin qiyməti 7 faizdən çox ucuzlaşmışdı. Lakin hərbi gərginliyin davam etməsi bazarlarda qiymətlərin riskə görə yüksək qalmasına səbəb olub.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

Paytaxtda Zəfər Gününə həsr edilən ağacəkmə aksiyası keçirilib





Bakı Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr edilən ağacəkmə aksiyası təşkil edilib. Paytaxtın Nərimanov rayonunda keçirilən aksiyada Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyi, əməkdaşları və struktur bölmələrinin işçiləri, şəhid ailələri və qazilər iştirak ediblər.

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən verilən məlumata görə, iştirakçılar tərəfindən aksiyanın keçirildiyi ərazi yararsız tullantılardan təmizlənib Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun -300 ədəd yeni ağac əkilib.

Ağacəkmə aksiyası Bakı şəhərində quraqlığa davamlı bitkilərin, yerli iqlimə uyğun ağac və kolların əkilməsi, həmçinin paytaxtda ekoloji tarazlığın bərpası və ərazinin gözəlləşməsi istiqamətində görülən işlərin davamıdır.

Qeyd edək ki, əkilən ağaclara gələcəkdə qulluq göstərilməsi üçün cavabdehlər müəyyənləşdirilib, suvarma məsələləri həll edilib.

Mövsüm ərzində Bakı şəhərinin yaşıllaşdırılması, yaşıllıqlara qulluq və abadlıqla bağlı işlərin davam etdirilməsi nəzərdə tutulub.

"Azərbaycan"

Hava əsasən yağmursuz keçəcək, bəzi yerlərdə duman olacaq

Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Səhər bəzi yerlərdə duman, az çiskin olacaq. Mülayim cənub-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 11-15, gündüz 18-23 dərəcə isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunundan 757 millimetr civə sütununa enəcək. Nisbi rütubət 65-75 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 11-15, gündüz 19-24, dağlarda gecə 5-10, gündüz 13-18 dərəcə isti təşkil edəcək.

"Respublika Diaqnostika Mərkəzi" ASC-nin səhmdarlarının nəzərinə

"Respublika Diaqnostika Mərkəzi" ASC (VÖEN: 1300143511) səhmdarlarının növbədənkənar ümumi yığıncağı 4 dekabr 2026-cı il saat 10:00-da keçiriləcəkdir.

Yığıncağın gündəliyinə daxil olan məsələlər:

1. Cəmiyyətin icra orqanının rəhbərliyində dəyişikliyin edilməsi.
2. Cəmiyyətin 2026-cı il üzrə 9 (doqquz) aylıq maliyyə nəticələrinə dair məlumatın təqdim edilməsi.
3. Digər məsələlərin müzakirəsi.

Yığıncağın keçiriləcəyi ünvan: Bakı şəhəri, Tbilisi prospekti, 147, İnzibati bina, 2-ci mərtəbə. Telefon: 050 873 78 70

Rəhbərlik

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman və informasiya şöbəsi	- 539-63-82, 432-37-68
Baş redaktor müavinləri	- 538-86-86, 538-35-55	Humanitar siyasət şöbəsi	- 538-56-60, 434-55-58
Məsul katib	- 539-43-23,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Məsul katib müavinləri	- 539-44-91,	Kompüter mərkəzi	- 538-20-87,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Mühasibatlıq	- 539-59-33
İqtisadiyyat şöbəsi	- 538-42-32		

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3276
Sifariş 1467

Qiyməti 60 qəpik